

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib




5


№ 101 (7026)

SƏS

7 iyun 2024-cü il.
Qiymәti 60 qәpik


# Türk dünyası vahid ailədə



2

**Prezident İlham Əliyev: "Biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük"**

# Ağ Evin məktubu fonunda ETİRAFLAR






5

## Azərbaycan yaşıl dünyanın keşiyində




10

## Avropa Parlamentinə seçkilər, yoxsa?..




11

## Vitse-prezident: "Avropada Azərbaycan qazına böyük tələbat var"




3

## Belçika polisi Arif Məmmədovu Azərbaycana təhvil verməyə hazırlaşır



14

## Ərzaq bazarı: Bahalaşmanın səbəbi nədir?



9

# Türk dünyası vahid ailədə

## Prezident İlham Əliyev: "Biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük"





Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir. Son illərdə Türk dövlətləri arasında əlaqələr bütün sahələrdə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 6-da TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matraini qəbul etməsi əlaqələrin möhkəmliyinə əsaslanır. "Türk dünyasının birləşməsi istiqamətində ölkələrimiz böyük səylər göstərirlər. Bildiyiniz kimi, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub", - bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxışı zamanı bildirib:

"Builki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur. Əslində, bu, ölkəmizin bu istiqamətdəki siyasətini açıq şəkildə büruzə verir. Şadam ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir".

Xatırladaq ki, Azərbaycanın bu istiqamətdə töhfələrindən biri də Türk Şurasının yaradılması ilə bağlı sazişin məhz ölkəmizdə imzalanmasıdır. 2009-cu ildə Azərbaycanın Naxçıvan şəhərində keçirilən toplantıda imzalanan Sazişə əsasən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradılıb. Saziş Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri tərəfindən imzalanıbdır. Ötən müddət ərizində bu əlaqələr genişlənib. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır.

### "HƏR BIR ZİRVƏ GÖRÜŞÜ BİRLİYİMİZİN GÜCLƏNDİRİLMƏSİNƏ İSTİQAMƏTLƏNMİŞ NÖVBƏTİ ADDIM OLUR"

"Mənim təşəbbüsümlə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək" - deyən Azərbaycan Prezidenti bildirib ki, ildə bir dəfə Zirvə görüşünün keçirilməsi kifayət etməz: "Çünki həm sürətli, yəni davamlı təmaslara ehtiyac var, eyni zamanda, hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur. Çox şadam və həmkarlarıma minnətdaram ki, onlar bu təşəbbüsü dəstəkləyiblər və düz bir aydan sonra Şuşa şəhərində qeyri-rəsmi Zirvə görüşü keçiriləcək".

Məlumdur ki, müasir dövrümüzdə bu təşkilat beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir. Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi haqqında qərar da məhz Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunması əlbəttə ki, qürurvericidir. TÜRKSOY tərəfindən Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi Türk-İslam dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətinin göstəricisidir.

### "MƏN HESAB ETDİM Kİ, İNDİKİ ZƏMANƏDƏ ORTA DƏHLİZİN POTENSİALINA DÜNYADA DAHA BÖYÜK EHTİYAC VAR"

Cənab Prezident Şuşa şəhərində qeyri-rəsmi Zirvə görüşünün keçirilməsinin əsas mövzularının nəqliyyat və iqlimlə bağlı olacağını bildirib: "Bu da təbiidir. Çünki bu gün nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi Türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir. Orta Dəhlizin fəaliyyətə başlaması və yükdaşımaların artırılması göz önündə olan məsələlərdir. Burada Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələr birgə fəaliyyət göstərir. Mən hesab etdim ki, indiki zəmanədə Orta Dəhlizin potensialına dünyada daha böyük ehtiyac var. Biz bu mövzu ilə bağlı, gələcək addımlarımızla bağlı geniş fikir mübadiləsi aparmalıyıq.

İqlim məsələləri isə bu gün Azərbaycanın gündəliyində duran əsas vəzifələrdən biridir. Bildiyiniz kimi, Azərbaycan bu il COP29 konfransına ev sahibliyi edəcək. Bu, bizim üçün həm böyük məsuliyyətdir, həm də böyük şərəfdir. Bu qlobal tədbirə hazırlıq ərəfəsində, əlbəttə ki, qardaş ölkələrlə bu məsələləri də müzakirə etmək böyük fayda verəcəkdir".

Xatırladaq ki, istismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı - Aktau bərə yolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşınmaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s. daşınmasını xeyli səmərəli edir.

### "ZİRVƏ GÖRÜŞÜNÜN ŞUŞADA KEÇİRİLMƏSİ TƏBİİ Kİ, BÖYÜK RƏMZİ MƏNA DAŞIYIR"

TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Belə ki, hələ 2020-ci ildə Vətən müharibəsi zamanı bəziləri hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmasına baxmayaraq, türk dövlətləri Azərbaycanın haqlı mübarizəsinə öz dəstəklərini verdilər. 2020-ci il türk dünyası üçün yadda qalan oldu. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir.

Azərbaycan tarixi Zəfərdən sonra azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini davam etdirir. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndi müasir məkana çevirir.

"Zirvə görüşünün Şuşada keçirilməsi təbii ki, böyük rəmzi məna daşıyır" - deyən Prezident qeyd edib ki, Şuşa 4 ilə yaxındır ki, işğaldan azad edilib və orada sürətlə quruculuq-bərpa işləri aparılır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Bildiyimiz kimi, üzv dövlətlər Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı bərpa-yenidənqurma işlərinə də öz töhfələrini verirlər. Bu baxımdan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb:.Cəbrayılda yaradılan Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, Zəngilanda birinci mərhələsi açılan "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksi və s. qeyd etmək olar.

Ardı Səh. 3

# Türk dünyası vahid ailədə

## Prezident İlham Əliyev: "Biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük"

Əvvəli Səh. 2

Həyata keçirilən layihələr Türk Dövlətləri Təşkilatının rolunu daha da artırır və onu dünyanın aparıcı beynəlxalq qurumlarından birinə çevirir. "Türkiyə Prezidenti, Özbəkistan Prezidenti, Qazaxıstan Prezidenti, Qırğızıstan Prezidenti Ağdama və Füzuliyə səfər etmişdir. Yəni bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır. Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir. Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda qardaş ölkələrin təşəbbüsü və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi fəaliyyətə başlamışdır. Bunlar Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilib. Bir məktəbin təməlini isə bu yaxınlarda Qırğızıstan Prezidenti ilə bərabər Ağdam rayonunda qoyduq. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə bir məktəb inşa ediləcək. Yəni, bütün bunlar bir daha birliyimizi göstərir. Bu fürsətdən istifadə edərək mən qardaş ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm" - deyə Prezident bildirib.

**"MƏN BİR DAHA QEYD ETMƏK İSTƏYİRƏM Kİ, TÜRKPA-NIN BUGÜNKÜ TOPLANTISI BÖYÜK ƏHƏMİYYƏT DAŞIYIR"**

Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yollarının yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur.

Cənab Prezident onu da diqqətə çatdırıb ki, azad edilmiş ərazilərdə bu gün geniş yolnəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər fəal iştirak edirlər. "İndi Şuşaya gedən hər bir insan yeni çəkilən avtomagistraldan keçərək öz gözü ilə görür ki, orada 7 tunel, 9 viaduk, bir çox körpülər inşa edilir və podratçıların əksəriyyəti Türkiyədən olan şirkətlərdir. Eyni zamanda, dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz-Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir", - deyən Prezident bildirib ki, biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük: "Təbii ki, bu, həm bizi sevindirir, həm də bütün Türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir.

Azad edilmiş torpaqlarda həyat bərpa olunur. Artıq 4 şəhər və 4 kənd bərpa edilib və keçmiş köçkünlər oraya qayıtmışlar. Yeddi mindən çox keçmiş köçkün artıq öz dədə-baba torpaqlarında yaşayır və bu ilin sonuna qədər bu rəqəm ən azı 20 minə çatacaq. Geniş quruculuq, abadlıq işləri aparılır və Qarabağ, Şərqi Zəngəzur dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, TÜRKPA-nın bugünkü toplantısı böyük əhəmiyyət daşıyır. Əminəm ki, müzakirə ediləcək məsələlər bizim birliyimizi daha da gücləndirəcək. Eyni zamanda, hər dəfə qardaş ölkələrdən yüksəkvəzifəli şəxslər ölkəmizə gələndə, bu, bizi sevindirir. Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir. Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması - bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük. Hər bir toplantı, hər bir Zirvə görüşü bizim məqsədlərimizə doğru atılan növbəti addım olur".

*Zümrüd BAYRAMOVA*

# Prezident İlham Əliyev Ümumdünya Ticarət Təşkilatının baş direktorunu qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Ümumdünya Ticarət Təşkilatının baş direktoru Nqozi Okonyo-İvealanı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxilolma prosesi ilə bağlı fikir mübadiləsi aparıldı.**

Qonaq Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətləri vurğuladı. COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Ümumdünya Ticarət Təşkilatının baş direktoru bu tədbir çərçivəsində Ticarət və Sərmayə Gününün təşkil edilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Söhbət zamanı ölkəmizlə Təşkilat arasında əməkdaşlıq imkanları müzakirə olundu.




# Vitse-prezident: "Avropada Azərbaycan qazına böyük tələbat var"

**"Almaniya ekologiyaya çox ciddi diqqət yetirən bir dövlətdir və 2045-ci ilə kimi enerji istehlakında tamam yaşıl enerjiyə keçməyi planlaşdırıb. Bu istiqamətdə atılan addımlardan biri kömürdən tamamilə imtina etmək olub. Almaniyada bütün kömür yataqlarının istismarı dayandırılıb." Bu sözləri Almaniyanın "Uniper" şirkətinin vitse-prezidenti Mixael Himler Bakı Enerji Forumunun ikinci günündə "Qaz dialoqu: Enerji böhranı zamanı qaz təchizatının rolu" mövzusunda keçirilən panel müzakirəsində çıxışı zamanı deyib. O bildirib ki, bütün bunlara baxmayaraq təbii qaza olan tələbat hələ uzun illər boyu davam edəcək.**

"Almaniya yaşıl enerjiyə keçid üçün bir sıra tədbirlər görsə də təbii qaz ilə təchizatını da diqqətdə saxlayır. Avropanın bir çox dövləti, o cümlədən Almaniya Rusiya qazından imtina etdikdən sonra qıtədə enerji böhranı yarandı və qiymətlər 7 dəfə artdı. Buna görə də Avropada Azərbaycan təbii qazına böyük tələbat var. Bizim şirkət 2013-cü ildə SOCAR ilə Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından qaz almaq haqqında razılaşma imzalayıb. Almaniyada məişətdə təbii qaza hələlik çox böyük tələbat var. SOCAR ilə imzalanan müqavilə ilə biz qaz idxalımızı şaxələndiririk", - deyə M.Himler qeyd edib.

Şirkətin vitse-prezidenti əlavə edib ki, Almaniya hazırda 275 qiqavat yaşıl enerji istehsal etməyi planlaşdırıb: "Bu çox yaxşı təşəbbüsdür və artıq külək elektrik stansiyasından enerji alınır. Almaniyada enerjiyə olan tələbatın yalnız 10 faizi yaşıl enerji hesabına ödənilir. Lakin nəzərə almaq lazımdır ki, sənayedə və istehsal müəssisələrində təbii qaza tələbat çox böyük həcmdədir və yaxın gələcəkdə də eyni səviyyədə qalacaq".

# Azərbaycan-Qırğızıstan: ortaq kök və ortaq tarix

***Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi, qarşılıqlı əməkdaşlıq Azərbaycan xarici siyasətinin əsas prioritetlərindəndir. Son illərdə Türk dövlətləri arasında əlaqələr bütün sahələrdə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir.***



Azərbaycan türk dövlətləri ilə fəaliyyətinin daha da güclənməsi üçün davamlı addımlar atır. Bu baxımdan, Qırğızıstanla da Azərbaycan arasında qarşılıqlı anlaşma mühiti mövcuddur. Qırğızıstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyir. İki dost və qardaş dövlət və onların təmsilçiləri BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ECO, Şanxay təşkilatı çərçivəsində həmişə bir-birini dəstəkləyiblər. Hər iki dövlətin prezidentlərinin rəsmi səfərləri və səfər çərivəsində müxtəlif sahələri əhatə edən mühüm sənədlərin imzalanması əlaqələrin müsbət dinamika ilə inkişafına təkan-dır. Azərbaycan və Qırğızıstan arasında ”Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandum”, ”Strateji Tərəfdaşlıq haqqında Bəyannamə” və s. daxil olmaqla, müxtəlif sahələri əhadə edən sənədlər imzalanıb. İmzalanan sənədlərdən sırasında olan Strateji Tərəfdaşlıq haqqında Bəyannamə əlaqələrin təməlini möhkəmlənməsində müstəsnadır. Vurğulamaq yerinə düşər ki, Azərbaycanla Qırğızıstan arasındakı uğurlu dövlətçilik münasibətlərinin əsası məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Azərbaycanla Qırğızıstan arasında diplomatik münasibətlər 1993-cü il yanvarın 19-da qurulub. Ulu Öndər 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının III Zirvə Görüşü və ”Manas” eposunun 1000 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün ilk dəfə Qırğızıstana səfər edib. 2007-ci ildə Azərbaycanın Qırğızıstanda səfirliyi, 2008-ci ildə Qırğızıstanın Bakıda səfirliyi fəaliyyətə başlayıb.

### STRATEJİ TƏRƏFDAŞLIQ - MÜNASİBƏTLƏRİN KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 6-da Qırğız Respublikasının Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi qəbul etməsi əlaqələrin dinamik inkişafının daha bir göstəricisidir.

Dövlətimizin başçısı ötən ilin oktyabrında Qırğızıstana səfərini məmnunluqla xatırlayıb. Söhbət zamanı Azərbaycan ilə Qırğızıstan arasında İnvestisiya Fondunun yaradıldığı və onun büdcəsinin hazırda daha da artırıldığı qeyd edilib. Görüşdə Qırğızıstan Prezidentinin Azərbaycana səfəri və səfər çərçivəsində aparılmış müzakirələrin və imzalanmış sənədlərin əhəmiyyəti diqqətə çəkilib.

Vurğulamaq yerinə düşər ki, qeyd edilən səfər çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyət üzrə bir çox məsələlər müzakirə edilib. İnvestisiya sahəsində əməkdaşlığın perspektiv məsələləri - müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədləri imzalanıb. ”Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının ikinci iclasının Qərarı”nı və ”Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Birgə Bəyannaməsi”ni imzalayıblar. Dostluğumuzun və qardaşlığımızın ifadəsi olan məlum səfər çərçivəsində bir sıra çox mühüm sənədlər, eləcə də yüksək strateji tərəfdaşlıq sənədi imzalanmışdı. İmzalanmış yüksək strateji tərəfdaşlıq sənədi ölkələrimizin münasibətlərini keyfiyyətcə yeni səviyyəyə çatdırılmasında mühüm rol oynayır.

### ÖLKƏLƏRİMİZİN VƏ XALQLARIMIZIN SARSILMAZ BİRLİYİ

44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq quruculuq işlərinə qardaş dost ölkələri də öz töhfələrini verirlər. Azərbaycan Prezidentinin Nurlanbek Şakiyevi qəbulu zamanı Azərbaycanın işğaldan azad olunmuş Ağdam rayonunda Qırğızıstan tərəfindən məktəbin inşasının həyata keçirilməsi ölkələrimiz arasında dostluğun və qardaşlığın nümunəsi kimi qiymətləndirilib. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan öz vəsaiti hesabına Ağdam rayonunda orta məktəbin tikintisini həyata keçirir. Bildiyimiz kimi, türk dövlətləri də Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı bərpa-yenidənqurma işlərinə də öz töhfələrini verirlər. Bu baxımdan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, eləcə də bu ilin martında isə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi, eləcə də qeyd etdiyimiz kimi, Prezident Sadır Japarovun təşəbbüsü ilə Ağdam rayonunda Qırğızıstan tərəfindən tikiləcək orta məktəbin təməlinin qoyulması ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının sarsılmazlığının parlaq nümunələridir.

Nurlanbek Şakiyev Azərbaycanın işğaldan azad olunmuş rayonlarına, xüsusən də Şuşa şəhərinə səfər etdiyini və həmin ərazilərin dünyanın ən gözəl guşələrindən biri olduğunu bildirib. O, Azərbaycan xalqının səbirlə otuz ilə yaxın bir müddətdə torpaqlarımızın işğaldan azad edildiyi günü gözləməsinin və buna nail olmasının önəmini vurğulayıb. Söhbət zamanı Türk Dövlətləri Təşkilatının inkişafı, beynəlxalq təşkilatlarda və təsisatlarda Azərbaycan-Qırğızıstan əməkdaşlığının və ölkələrimizin parlamentləri arasında əlaqələrin vacibliyi vurğulanıb.

### ”BİZ ƏNƏNƏVİ TƏRƏFDAŞLARIMIZLA, QARDAŞ ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİ İNKİŞAF ETDİRİRİK”

Qeyd edək ki, Azərbaycan və Qırğızıstan daim artan beynəlxalq nüfuzu, öz iqtisadi inkişafının perspektivi, coğrafi və geosiyasi vəziyyəti, eləcə də iki türk xalqı arasında tarixən yaranmış dostluq və qardaşlıq əlaqələrini nəzərə alaraq, gələcək inkişafa və ticarət-iqtisadi, siyasi, mədəni və digər sahələrdə qarşılıqlı surətdə ikitərəfli faydalı əməkdaşlığın geniş spektrdə güclənməsində siyasi iradə nümayiş etdirir. İkitərəfli Qırğızıstan-Azərbaycan münasibətlərinin inkişaf dinamikası müxtəlif sahələri əhatə edir ki, bu da əlaqələrinin daha da dərinləşməsinə və siyasi münasibətlərin gücləndirilməsinə öz töhfəsini verir. Türk dünyasının böyük yazıçısı, türk dünyasının böyük sənətkarlarından biri, dünyaşöhrətli yazıçı, qırğız ədəbiyyatının görkəmli nasiri, diplomat və ictimai xadim Qırğızıstanın Xalq yazıçısı Çingiz Aytmatovun Bakıdakı abidəsinin açılışı biriyin, dostluğun və qardaşlığın rəmzidir. Bu həm də Çingiz Aytmatova olan ehtiramın ifadəsidir. Azərbaycan ilə Qırğızıstan arasında möhkəm dostluq münasibətləri sarsılmazdır. Bütün bunlar və digər amillər tarixi köklərə bağlı olan xalqlarımızın dostluğu və qardaşlığın təzahürüdür. Ortaq soy-kök, ortaq tarix və mədəniyyət, milli dəyərlər, eləcə də mövcud potensial və həyata keçiriləcək layihələr dövlətlərarası bağları daha da möhkəmləndirəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidentinin Azərbaycana səfəri zamanı mətbuata bəyanatında bildirmişdir ki, biz ənənəvi tərəfdaşlarımızla, qardaş ölkələrlə münasibətləri inkişaf etdiririk. Azərbaycanı və Mərkəzi Asiyanı əsrlər boyu əməkdaşlıq və dostluq münasibətləri birləşdirir. İkitərəfli Qırğızıstan-Azərbaycan münasibətlərinin inkişaf dinamikası müxtəlif sahələri əhatə edir ki, bu da əlaqələrinin daha da dərinləşməsinə və siyasi münasibətlərin gücləndirilməsinə öz töhfəsini verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bakıda TÜRKPA Şurasının 13-cü iclası keçirilib

***İyunun 6-da Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Şurasının 13-cü iclası keçirilib. TÜRKPA-nın fəaliyyətdə olan sədri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş iclası açaraq Türk əməkdaşlıq qurumları arasında xüsusi yerə malik olan TÜRKPA-nın gündən-günə böyüməkdə və inkişaf etməkdə olduğunu deyib.***



Sonra Numan Kurtulmuş TÜRKPA-da sədrliyi Milli Məclisin sədri Sahibə Qafarovaya təhvil verib. O, qarşıdakı dövrdə təşkilata sədrlik edəcək Azərbaycan tərəfinə uğurlar arzulayıb. TÜRKPA-nın fəaliyyətdə olan sədrliyini qürur hissi ilə təhvil aldığını deyən Sahibə Qafarova Milli Məclisin qarşıdakı dövrdə təşkilatın məqsədlərinə nail olunması, əməkdaşlığın daha da inkişafı üçün lazımi tədbirlərin həyata keçirilməsinə səy göstərəcəyini bildirib.

O, Türk Dövlətləri Parlament Assambleyasının fəaliyyət göstərdiyi 15 ildən artıq dövrdə Assambleyanın əsas tədbirlərinin artıq dördüncü dəfədir Bakıda keçirilməsindən məmnunluğunu bildirib, bu gün aparılacaq müzakirələrin qarşıya qoyulan hədəflərə nail olmağa kömək göstərəcəyinə inamını ifadə edib.

Vurğulanıb ki, Azərbaycan TÜRKPA-nın ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə verdiyi töhfələri yüksək qiymətləndirir. Türk birliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən davamlı tədbirlərin Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətini təşkil etdiyini deyən Milli Məclisin sədri həm Şura iclasının, həm də plenar iclasın gündəliyinin kifayət qədər zəngin olduğunu diqqətə çatdırıb. Parlamentin sədri Vətən müharibəsində 30 illik işğalın başa çatdığını və Azərbaycanın ərazi bütövlüyünü, ötən ilin sentyabrında isə suverenliyini bərpa etdiyini xatırladıb.

Parlament Assambleyasının 13-cü plenar iclasının mövzusunun çox aktual olduğunu deyən Milli Məclisin sədri bildirib ki, noyabrda Bakı COP29-a ev sahibliyi edəcək.

S.Qafarova deyib ki, TÜRKPA-nın plenar iclasında ”Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu” mövzusunda aparılacaq müzakirələr və qəbul ediləcək qərarlar iqlim dəyişikliklərinə qarşı mübarizəyə, ölkələrimizin yaşıl enerji sahəsində əməkdaşlığına parlament dəstəyinin ifadəsi olacaq.

İclasda çıxış edən Türkiyə Böyük Millət Məclisin sədri Numan Kurtulmuş, Qırğız Respublikası Joqorku Keneşinin sədri Nurlanbek Şakiyev və Qazaxıstan Respublikası Parlament Məclisinin sədri Yerlan Koşanov tədbirin təşkilinə və göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürlərini bildirib, Azərbaycan tərəfinə sədrlik dövründə uğurlar arzulayıblar.

Çıxışçılar TÜRKPA-nın 13-cü Şura və plenar iclaslarında aparılacaq fikir mübadiləsinin, qəbul olunacaq qərarların təşkilatın gələcək fəaliyyətinin daha da gücləndirilməsinə mühüm töhfə verəcəyinə inamlarını ifadə ediblər. İclasda bir sıra təşkilati məsələlərə baxılıb və müvafiq qərarlar qəbul edilib.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

**İyunun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib. İclasda ilk olaraq YAP Saatlı rayon təşkilatının sədri Lütvəli İbrəhim oğlu Şıxəliyevin öz ərizəsi ilə tutduğu vəzifədən azad olunması məsələsinə baxılıb.**






Tahir Budaqov 1993-cü ildən YAP-ın üzvü olan L.Şıxəliyevin 1999-cu ildən bu günədək partiyanın Saatlı rayon təşkilatının sədri vəzifəsində uğurla fəaliyyət göstərdiyini bildirib, onun bundan sonra da öz peşəkarlığı və təcrübəsi ilə rayon təşkilatının işinə yaxından dəstək verəcəyinə əminliyini ifadə edib. YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxış edərək L.Şıxəliyevin partiya işində nümunəvi fəaliyyət göstərdiyini qeyd edib. Ünvanına deyilən xoş sözlərə görə təşəkkürünü bildirən L.Şıxəliyev ictimai-siyasi proseslərdə, partiyanın həyatında bundan sonra da fəal iştirak edəcəyini bildirib.

Müzakirələrin sonunda Lütvəli Şıxəliyevin YAP Saatlı rayon təşkilatının sədri vəzifəsindən azad olunması haqqında qərar qəbul olunub. Ardınca YAP Saatlı və Zaqatala rayon təşkilatlarına sədrlərin təyin edilməsi məsələsinə baxılıb. Elşən Zeynal oğlu Əzizovun YAP Saatlı rayon təşkilatının, Fərid Səfər oğlu Ramazanovun isə Zaqatala rayon təşkilatının sədri vəzifələrinə namizədliyi irəli sürülüb. YAP İdarə Heyətinin üzvləri Eldar İbrahimov və Asif Əsgərli çıxış edərək hər iki şəxsin irəli sürülən vəzifəyə layiq olduqlarını bildirib, onlara fəaliyyətlərində uğurlar arzulayıblar. Müzakirələrdən sonra Elşən Zeynal oğlu Əzizovun YAP Saatlı rayon təşkilatının sədri və Fərid Səfər oğlu Ramazanovun YAP Zaqatala rayon təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul edilib.

Sonra Vaqif Aslan oğlu Hüseynovun və Tahir Məhərrəm oğlu Quliyevin Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının tərkibinə kooptasiya yolu ilə daxil edilməsi məsələsinə baxılıb.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə, YAP İdarə Heyətinin üzvləri Eldar İbrahimov, Elnarə Akimova və Aynur Sofiyeva namizədliyi irəli sürülən şəxslərin həyat yoluna nəzər salaraq partiya və dövlət qarşısında xidmətlərini qeyd edib və partiyanın Veteranlar Şurasında təmsil olunmalarını dəstəklədiklərini bildiriblər.

Müzakirələrdən sonra Vaqif Aslan oğlu Hüseynovun və Tahir Məhərrəm oğlu Quliyevin YAP Veteranlar Şurasına üzv seçilməsi haqqında qərar qəbul olunub.

Vaqif Hüseynov və Tahir Quliyev göstərilən etimada görə partiyanın Sədri, ölkə başçısı cənab İlham Əliyevə dərin təşəkkürünü ifadə edərək YAP Veteranlar Şurasının üzvü kimi üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün var gücü ilə çalışacaqlarını bildiriblər.

YAP Veteranlar Şurasının üzvü seçilməsi münasibətilə hər iki şəxsi təbrik edən Tahir Budaqov onlara möhkəm cansağlığı və gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

# Ağ Evin məktubu fonunda ETİRAFLAR




ABŞ prezidentinin Azərbaycana göndərdiyi məktub ciddi şəkildə maraq doğurub və diqqəti də əməlli-başlı cəlb edib. Ona görə ki, Ağ Evin məktubu fonunda ölkəmizlə bağlı etirafları dərk etməmək mümkün deyil və ələlxüsus da Azərbaycanın məhz dünya miqyasında rolunun ABŞ tərəfindən tanındığı barədə dolayısı ilə etiraf olunması diqqəti cəlb etməyə bilməz. Şübhəsiz ki, Co Baydenin məktubunun erməni cəmiyyətində də çaşqınlıq, narahatlıq və rezonans doğurması bu baxımdan heç də gözlənilməz sayılmır.

## Regionda maraqları olanlar ölkəmizin yaratdığı yeni geosiyasi reallıqları tam şəkildə qəbul etməkdədirlər

Azərbaycanın prinsipial şəkildə yürütdüyü regional siyasət məhz Cənuni Qafqazın geosiyasi mənzərəsini tamam dəyişib və bunun təkcə ABŞ kimi bir ölkədə deyil, dünyanın hər yerində qəbul edildiyi günün reallığıdır. Xüsusən də II Qarabağ müharibəsinin nəticələri regionda, məhz Cənubi Qafqazda artıq yeni geosiyasi şərtlərin əsas təməl prinspləri olaraq qəbul edilməkdədir. ABŞ prezidentinin məktubu fonunda artıq bəlli olur ki, regionda maraqları olanlar belə ölkəmizin yaratdığı yeni geosiyasi reallıqları tam şəkildə qəbul etməkdədirlər və bunu daha qətiyyən inkar etmək niyyətində görünmürlər. II Qarabağ müharibəsinin nəticələri ilə Azərbaycan məhz Cənubi Qafqazda maraqları olan dünya ölkələrini, bir çox qüvvələri yeni geosiyasi şərtləri, reallıqları qəbul etmək məcburiyyətində qoyduğuna artıq günü-gündən daha çox əmin oluruq. Əmin oluruq ki, regional proseslərdə, Cənubi Qafqazla bağlı məsələlərdə rəsmi Bakının geosiyasi iradəsindən yayınmağın mümkünsüzlüyü artıq qəbul olunub. Artıq Azərbaycanın razılığı olmadan bu bölgədə, bu regionda hansısa prosesə hansısa qüvvələrin müdaxilə etmək şansının belə olmadığını hər kəs çox yaxşı başa düşür. Hər kəs başa düşür ki, hansısa qüvvələr artıq Cənubi Qafqazda öz geosiyasi maraqları naminə nə isə edə bilməz və öz maraqlarını yürüdə bilməz. Təkcə biz yox, bütövlükdə dünya ictimaiyyti bu reallığı, bu həqiqəti artıq etiraf etməkdədir və ABŞ liderinin məktubu bunu bir daha təsdiqləmiş oldu.

## Azərbaycanın xarici təsirlərə qarşı müqavimət potensialı var və bu, regional faktor rolunu oynayandır

Bütün dünya ictimaiyyəti bilir ki, inkişaf etməkdə olan Azərbaycanın xarici təsirlərə qarşı müqavimət potensialı var və bu müqavimət potensialı özü regional faktor rolunu oynayandır. Sirr deyil ki, güclü orduya malik olan Azərbaycanın istənilən xarici müdaxiləyə, kənar təsirlərə sərt şəkildə əks reaksiya vermək imkanı, potensialı var və bunun sayəsində hansısa qüvvələrin öz maraqlarını güdməsinə, həmin maraqları regionda, Cənubi Qafqazda reallaşdırmaq cəhdinə rəsmi Bakı qətiyyən imkan verməz. İstənilən anda, istənilən şəraitdə Azərbaycan öz iradəsini nümayiş etdirməkdən çəkinən deyil və bunun artıq dünya ictimaiyyəti dəfələrlə şahidi oldu. Şahidi oldu ki, istər 44 günlük müharibədə, istər bir sutkadan da az vaxt intervalında başa çatdırılan anti-terror tədbirlərində, istərsə də diplomatik qələbələrində rəsmi Bakı qətiyyən kənar təsirləri hesaba belə almadı və beynəlxalq hüququn norma və pronspləri çərçivəsində çəkinmədən öz iradəsini nümayiş etdirdi. Hətta indi onu da yaxşı başa düşürlər ki, bütün bu əməliyyatları, tədbirləri Azərbaycan öz gücü, öz potensialı ilə başa çatdırdı və bunun üçün ölkəmizin iqtisadi, maliyyə potensilının da yetərincə olması da zərrə qədər şübhə doğurmur. Bu gün ölkəmizin hansı iqtisadi potensiala sahib olduğunu etiraf etməkdən başqa kimlərinsə heç bir çarəsi qalmayıb. Qərb ölkələri üçün əvəzolunmaz enerji təhlükəsizliyi tərəfdaşına çevrilən Azərbaycanın imkanlarını etiraf etmək ən doğru addımdır və biz bu addımın məhz ABŞ tərəfindən belə atıldığını gördük, Bakıya məktub göndərişində bunun əyani şahidi olduq.

## Ölkəmizin dünya məkanında söz sahiblərindən birinə çevrilməsi son vaxtlar dünya nəhəngləri tərəfindən etiraf edilir

Bir məsələni də hər kəs çox yaxşı başa düşür və qəbul edir ki, Orta Asiya enerji resurslarının da Avropa bazarlarına çıxarılmasında Azərbaycan həlledici tranzit ölkə stutusuna sahibdir. Ona görə ki, məhz Orta Asiya enerji resurslarının beynəlxalq alıcıları mütləq Azərbaycan ərazilərindən və boru kəmərlərindən istifadə etmək məcburiyyətindədirlər. Daha dəqiq desək, bütün bunlar onu deməyə əsas verir ki, Avropa və Asiya ölkələri iqtisadi-ticari münasibətlərinin inkişaf etdirilməsində də şəksiz-şübhəsiz məhz Azərbaycana möhtacdırlar. Bəli, sözün əsl mənasında məhz Azərbaycan Avropadan Asiyaya qədər davam edən geniş bir arealda inkaredilməz hərbi-siyasi, iqtisadi-ticari və geopolitik iradəyə malikdir.

## ABŞ liderinin özü üçün də sirr deyil ki, regional qaydalar məhz Bakıda müəyyən olunur

ABŞ prezidenti Co Baydenin Bakıda keçirilən 29-cu Xəzər Beynəlxalq neft-qaz sərgisinə göndərdiyi məktubunda Azərbaycanın beynəlxalq əhəmiyyətinə eyham vurulması maraq doğurur və diqqəti də cəlb edir. Xüsusən də, Ermənistanla yekun sülh sazişi imzalandıqdan sonra Azərbaycanın dünyada rolunun ciddi şəkildə dəyişəcəyini Ağ Ev sahibinin bəyan etməsi qətiyyən diqqətdən kənarda qala bilməz. Bu həm də ona görə diqqətdən kənarda qala bilməz ki, ABŞ prezidentinin məktubinda yer alan bu məqamda həm də müəyyən dolayısı mesajlar da mövcuddur. İndi dünya ictimaiyyəti bu mesajların özünün də nədən ibarət olduğunu çox yaxşı başa düşür və Azərbaycanın, rəsmi Bakının bütün dünyada hansı nüfuz sahibi olduğu barədə tam qənaətə gəlməkdədir. Hətta bütövlükdə dünya bu reallıqları, ölkəmizlə bağlı reallıqları istənilən anda etiraf belə etməyə hazırdır və bunu görmək heç də çətin deyil.

Artıq əminliklə deyilməli və hətta etiraf belə edilməlidir ki, prezident Co Baydenin məhz Azərbaycanın dünyadakı rolunun dəyişməsindən danışması olduqca böyük önəm daşıyır. Çünki bu, Azərbaycanın beynəlxalq məkana təsir potensialına dolayısı ilə eyham anlamı daşıdığını növbəti dəfə təsdiqləyir. Ağ Ev sahibi bu potensialın reallaşdırılması baxımından, Ermənistanla yekun sülh sazişinin imzalanmasının vacibliyini qabartmağa çalışması da diqqətdən yayınan deyil, amma bunun da haradan qaynaqlandığını hər kəs yaxşı bilir. Hər kəs yaxşı bilir ki, bu, məhz ABŞ-ın ermənipərəst mövqeyindən, erməni lobbisinin, diasporunun təsirlərindən qaynaqlanır. Doğrudur, Azərbaycanın dünya məkanındakı rolunun müəyyən edilməsində Ermənistanla yekun sülh sazişi hansısa ciddi rol oynamır və hazırda Azərbaycan üçün sülh sazişinin taleyüklü şəkildə önəm daşımadığını ABŞ prezidenti də yaxşı bilir. Yaxşı bilir ki, indi sülh sazişi daha çox Ermənistana lazımdır. Üstəlik, rəsmi İrəvan həmin sazişə nail olmaq üçün ilk növbədə məhz rəsmi Bakının şərtlərini qəbul etmək məcburiyyətindədir.

## Rəsmi Bakının beynəlxalq məkanında avanqard geopolitik oyunçular sırasına daxil olduğu görünür

Sadalananlar təsdiq edir ki, Azərbaycanın dünya məkanında geopolitik oyunçu olduğu qəbul olunur. Ortada elə önəmli səbəblər var ki, bunlar da həmçinin rəsmi Bakının hansı üstün məqamlara sahib olmasından xəbər verir və bunun etiraf edildiyini də görməkdəyik. Ağ Ev sahibinin hansısa şərt daxilində olsa da belə, Azərbaycanın dünyadakı rolundan danışmaq məcburiyyəndə qalması məhz rəsmi Bakının beynəlxalq məkanında avanqard geopolitik oyunçular sırasına daxil olduğunu göstərir. Daha sadə dillə desək, ölkəmizin beynəlxalq miqyasda söz sahibinə çevrildiyini artıq açıq şəkildə etiraf etməkdən heç kim çəkinmir. Prezident Co Bayden öz məktubunun məzmunu ilə əslində, Azərbaycanın dünya məkanındakı üstün rolunu ABŞ kimi bir ölkənin artıq tanıdığını əslində, etiraf etmiş olub. Bunu təkcə biz yox, Ermənistan tərəfi də yaxşıca görür və anlayır. Yaxşıca görür və anlayır ki, Azərbaycanın üstün məqamı var və ölkəmizlə bağlı həqiqətləri bütün dünya qəbul etməkdə, etiraf etməkdədir. Görünür elə buna görə də Ermənistan ictimaiyyətində, erməni cəmiyyətində və siyasi dairələrində Ağ Ev sahibinin məktubu səbəbindən ciddi çaşqınlıq, narahatlıq, rezonans müşahidə edilir. Erməni toplumu prezident Co Baydenin məktubundakı əsas şifrələri başa düşdüyü üçün narahatlığını gizlədə bilmir. Deməli, bu gün ölkəmizin üstünlüyü, beynəlxalq arenada, dünya məkanında söz sahibi olması artıq etiraf edilməkdədir və bunu müşahidə etmək bizim üçün qürurvericidir.

***İnam Hacıyev***





# YAP Mərkəzi Aparatında Lütvəli Şıxəliyevin 70 illik yubileyi münasibətilə görüş keçirilib

***İyunun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Saatlı rayon təşkilatının sədri Lütvəli Şıxəliyevin 70 illik yubileyi münasibətilə görüş keçirilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edib. Tahir Budaqov qeyd edib ki, uzun illər partiya sıralarında səmərəli fəaliyyət göstərən Lütvəli Şıxəliyev ölkənin ictimai-siyasi həyatında fəal mövqeyi ilə seçilib.***

1993-cü ildən YAP sıralarında təmsil olunan L.Şıxəliyevin partiya quruculuğunda yaxından iştirak etdiyini söyləyən Tahir Budaqov onun Yeni Azərbaycan Partiyası Saatlı rayon təşkilatının sədri kimi 25 ildən artıq fəaliyyəti dövründə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini diqqətə çatdırıb.

Göstərilən diqqətə görə təşəkkürünü bildirən Lütvəli Şıxəliyev Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan və uzun illər partiya sıralarında çalışmaqdan iftixar hissi keçirdiyini bildirib. Heydər Əliyev ideyalarına daim sadiq olduğunu qeyd edən L.Şıxəliyev bundan sonra da Ulu Öndərin siyasi irsinin gənc nəslə aşılanması, Prezident İlham Əliyevin siyasətinin təbliği yolunda öz bilik, bacarıq və səylərini əsirgəməyəcəyini vurğulayıb.



YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov L.Şıxəliyevə möhkəm cansağlığı və işlərində uğurlar arzu edib.

## Vladimir Putin: "Rusiya ilə Azərbaycan arasında münasibətlər uğurla, etibarlı və çox praqmatik şəkildə inkişaf edir"

İyunun 5-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ənənəvi Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində beynəlxalq informasiya agentliklərinin rəhbərləri ilə görüşüb və onların suallarını cavablandırıb.



TASS tərəfindən təşkil olunan görüşdə 15-dən çox ölkənin informasiya agentliklərinin rəhbərləri, o cümlədən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edib. Prezident Vladimir Putin AZƏRTAC-ın İdarə Heyəti sədrinin sualını da cavablandırıb.

Vüqar Əliyev: Salam, Vladimir Vladimiroviç. Bu gün bizə vaxt ayırdığınız üçün sağ olun. Bu gün Azərbaycan ilə Rusiya arasında əlaqələr dinamik şəkildə inkişaf edir. Bu yaxınlarda Prezident İlham Əliyevin Moskvaya səfəri nəinki ölkələrimiz üçün əlamətdar olan Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyini qeyd etmək, həm də ikitərəfli münasibətlərimizi müzakirə etmək imkanı yaratdı. Siz ikitərəfli əməkdaşlığımızın perspektivlərini, xüsusilə Şimal-Cənub Nəqliyyat Dəhlizi baxımından necə qiymətləndirirsiniz?

Prezident Vladimir Putin: Münasibətlərimiz uğurla, etibarlı və çox praqmatik şəkildə inkişaf edir. Biz Azərbaycan rəhbərliyinin dövlətlərarası əlaqələrimizin məhz qarşılıqlı maraq və mən deyərdim ki, bir-birinə müəyyən səviyyədə rəğbət əsasında qurulmasının tərəfdarı olduğunu hiss edirik. Azərbaycanda rus dilində fəaliyyət göstərən və uşaqlara təhsil verən 300 məktəbin mövcudluğunu başqa cür izah etmək mümkün deyil. Mən bilirəm ki, Prezident Əliyev respublikada rus dilinin öyrənilməsini hərtərəfli dəstəkləyir. Bu, bütün vektorlar üzrə müşahidə edilir. Bu, nədən xəbər verir? Bu, ondan xəbər verir ki, Azərbaycan rəhbərliyi Azərbaycan vətəndaşlarına rus dilinin lazım olacağını bilir. Nə üçün? İkitərəfli əlaqələrin inkişafı üçün və bu əlaqələr hazırda inkişaf edir. İndi bizdə ticarət dövriyyəsinin ümumi həcmi, əgər dollarla ifadə etsək, 4,5-4,6 milyard dollar təşkil edir. Temp yaxşıdır. İnkişaf tempi çox yaxşıdır. Münasibətlərimizi getdikcə daha çox şaxələndiririk.

Əminəm ki, hər iki tərəfdən belə əhvali-ruhiyyə saxlanılsa, - Rusiyada biz bu əhvali-ruhiyyədəyik, - nəticələr də yaxşı olacaq. Bu baxımdan, logistikanın inkişafı baxımından çox iş görmək lazımdır, Siz tamamilə haqlısınız. Bu, yalnız Şimal-Cənuba yox, digər vektorlara - Rusiya və Azərbaycan sərhədində, Dağıstan hissəsində logistika mərkəzlərinin tikintisinə də aiddir. Orada artıq iş gedir. Bu, digər istiqamətlərə də aiddir. Rusiyada Azərbaycandan, o cümlədən Rusiya büdcəsi hesabına təhsil alan tələbələr çoxdur. Biz görürük ki, gənclərin Rusiyada təhsil almağa marağı da kifayət qədər böyükdür.

Şimal-Cənub dəhlizinə gəldikdə, o, çox yaxşı, böyük tələbat duyulan beynəlxalq dəhlizə çevrilə bilər. Buradan yüklər sizin və mənim olduğumuz yerdən - Sankt-Peterburq limanından Avropa hissəsi ilə Azərbaycana, sonra isə İrana və Fars körfəzinin sahilinə göndəriləcək. Məncə, bu, Süveyş kanalından təxminən on gün daha tezdir. Pis heç nə demək istəmirik, Süveyş kanalı, əksinə, dünya ticarəti üçün çox gərəklidir. Ancaq bu dəhliz malların Şimala və Cənuba, əks istiqamətə çatdırılması üçün əlavə və çox səmərəli yol olacaq. Məncə, 10 gün daha tez başa gələcək. Bu, çox qənaətli, səmərəli və sərfəli marşrut olacaq. Ancaq burada hələ çox iş görmək lazımdır. Biz hər iki tərəfdən iş aparırıq. Mən bilirəm ki, Prezident Əliyev bu layihəni dəstəkləyir. Biz bu məsələni onunla dəfələrlə müzakirə etmişik. İran rəhbərliyi də bu layihəni dəstəkləyir. Bu dəhliz çox sərfəli olacağına görə həmin layihəyə xarici investorlar, regional olmayan, lakin yaxın olan ölkələr, o cümlədən suveren ərəb fondları da maraq göstərir. Aydındır, çünki suveren fondlar həmişə etibarlı investisiya sahələri axtarır. Bu layihə etibarlı investisiyalardan biridir, çünki onun gəlirliliyinə təminat və zəmanət var.

Burada əlavə, araşdırma tələb edən məsələlər var. Bu dəhliz hansı ərazilər, o cümlədən Azərbaycanın hansı əraziləri üzrə olacaq və onu necə maliyyələşdirəcəyik? Bu, kredit şəklində olacaq, yoxsa Rusiya tərəfindən birbaşa maliyyələşdiriləcək? Bu dəhliz Azərbaycan ərazisindən Qərbə gedən yollarla necə birləşəcək? Sonra iranlı tərəfdaşlarımızla, dostlarımızla İran ərazisindən keçən bu yolun şaxələndirilmiş hissələrini necə inşa edəcəyimizi, bu şaxələrin dar və ya geniş olacağını müzakirə edərək yekunlaşdırmalıyıq. Ancaq ən başlıcası odur ki, hamı bu layihənin həyata keçirilməsinin tərəfdarıdır. Biz faktiki olaraq, bu işə rəhbərlik məsələsini həll etmişik. Bizdə VTB bununla fəal şəkildə məşğul olur. Mən bu layihəni həyata keçirəcəyimizə qətiyyən şübhə etmirəm. Məsələ, əlbəttə ki, müddət və xərclərlə bağlıdır, lakin ümumən bu məsələlər, demək olar ki, işlənərək hazırlanıb. Beləliklə, bu, çox yaxşı bir layihədir, lakin birgə həyata keçirdiyimiz yeganə layihə deyil.

Bundan başqa, Azərbaycan Xəzəryanı dövlətdir, Xəzəryanı dövlətlərin beşliyinə daxildir və burada da, o cümlədən Xəzər dənizinin ekologiyası ilə bağlı məsələlərdə də bizim bir çox ümumi maraqlarımız var.

## "1993-cü il iyunun 15-i olmasaydı, bugünkü zəfər də olmazdı"




"15 iyun tarixinin mahiyyətini, fəlsəfəsini bilməkdən ötrü ilk növbədə 1988-ci ildən sonra Azərbaycan xalqının qarşısında dayanan vəzifələri və onların necə həyata keçirilib-keçirilməməsi məsələsinə diqqət yetirmək lazımdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Qasımlı deyib.

Millət vəkili bildirib ki, hələ Sovet ittifaqının mövcud olduğu zamanda Ermənistan Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürdü: "Azərbaycan rəhbərləri Ermənistanın bu fəaliyyətinin qarşısını ala bilmədilər. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan xalqının qarşısında bir sıra vəzifələr dayanırdı. Bunlar daxili siyasətdə dövləti qurmaq, planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçmək, təkpartiyalı sistemdən çoxpartiyalı sistemə keçmək, demokratik cəmiyyət qurmaq, xarici siyasət sahəsində Azərbaycanın dövlət müstəqilliyini tanıtmaq, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin qarşısını kəsmək, torpaqların işğalını dayandırmaq idi. 1991-1993-cü illərdə Azərbaycanda hakimiyyətdə olan rəhbərlər bu vəzifələri yerinə yetirə bilmədilər. Nəticədə 1993-cü ildə ümumi böhran yarandı. Bu böhran iqtisadiyyatın, siyasətin, mənəvi-psixoloji ruhun, daxili və xarici siyasətin böhranı idi. İnsanların sabaha ümidi yox idi. Müstəqil dövlət itirilmək, ölkə xaricdən dəstəklənən seperatçılıqla parçalanmaq, xalq vətəndaş müharibəsi astanasında dayanmışdı.

Azərbaycanda hakimiyyətdə olanlar bu məsələni həll edə bilmədilər. Gəncədə hərbi hissədə qiyam baş verdi. Belə bir şəraitdə nə edəcəyini bilməyən Azərbaycan hakimiyyəti xalqın təkidli tələbi ilə Naxçıvandan Ulu öndər Heydər Əliyevi Bakıya dəvət etdi. Heydər Əliyevin Bakıya dəvət edilməsi qurtuluş, xilaskarlıq missiyası daşıyırdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra düşmənə ilk zərbə endirildi. Horadiz əməliyyatından sonra atəşkəsə gedildi. Dövləti və milləti gələcəkdə torpaqların işğaldan azad edilməsi üçün hazırlamaq xəttini seçdi. Heydər Əliyev ölkənin inkişafının açarını tapdı. Bu, "Əsrin Müqaviləsi" oldu. Azərbaycan tarixində ilk dəfə olaraq təbii sərvət olan nefti milli sərvətə çevirən dövlət adamı Heydər Əliyev oldu. Heydər Əliyev dövləti qurdu, ölkəni seperatçılıqla parçalanmaq təhlükəsindən qurtardı, xalqı bütövləşdirdi, vətəndaş müharibəsi təhlükəsindən xilas etdi. Heydər Əliyev 1995-ci ilin noyabrın 12-də Azərbaycan konstitusiyasının qəbulunun və hazırlanmasının memarı oldu. Heydər Əliyev ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünü ləğv etdi. Azərbaycan geniş islahatlar yoluna çıxdı".

"1993-2003-cü illər Azərbaycanda güclü dövlətin yaradılması və torpaqların işğaldan azad edilməsinə hazırlığın ilkin mərhələsidir. Heydər Əliyevin millət və dövlət qarşısında qoyduğu hədəfləri cənab Prezidentimiz İlham Əliyev müstəsna ustalıqla yerinə yetirdi. 44 günlük Vətən müharibəsində qazanılan qələbənin, 2023-cü il aprelin 23-də dövlət sərhədlərimiz üzərində nəzarətin tam qurulmasının, sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirlərində separatçı rejimin diz çökməsi, cənab Prezident İlham Əliyev tərəfindən Xankəndidə dövlət bayrağımızın ucaldılması, dövlət suverenliyimizin tam bərqərar edilməsinin təməli 1993-cü ildə iyunun 15-də atıldı. 1993-cü il iyunun 15-i olmasaydı, bugünkü zəfər də olmazdı. 1991-ci ildən sonra millətimizin həyatında dönüş anı 15 iyundur" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Böyük Qayıdış konsepsiyası: yurd yerlərimizdə qaynayan həyat

## Prezident İlham Əliyev: "Biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik"



Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, işğala son qoydu. Ərazi bütövlüyümüzün bərpa edilməsi, Ermənistan - Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün Prezident İlham Əliyevin tutduğu qətiyyətli mövqe, ordu quruculuğuna, hərbi-sənaye kompleksinin inkişafına göstərdiyi diqqət və qayğı 44 günlük Vətən müharibəsində öz sözünü demiş oldu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoydu və dövlət başçısının dünyanın aparıcı KİV-lərinə verdiyi 30-a yaxın müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu.

Sülhsevər siyasət yürüdən Azərbaycan münaqişənin sülh, danışıqlar yolu ilə uzun müddət həllinə nail olmağa çalışsa da mümkün olmadı. Məlumdur ki, Ermənistan Azərbaycan Prezidenti İlham Əliyevin sülh çağırışlarına hərbi təxribatlarla cavab verdi. Azərbaycanın 44 gün ərzində apardığı əkshücum əməliyyatları Ermənistan üçün acı sonluqla yekunlaşdı. XXI əsrin müharibəsini aparan Azərbaycan düşmən üzərində tarixi qələbəsini qazandı, doğma Qarabağımız əsl sahiblərinə qaytarıldı. Bu gün də qalib xalq olaraq ölkəmizə maraq sonsuzdur. Müharibədən sonrakı durum, Azərbaycanın mövqeyi diqqətdə saxlanılır. Bu Azərbaycanın dünya miqyasında olan yüksək imicindən qaynaqlanır. Əlbəttə ki, dövlət başçısı bütün çıxışlarında, müsahibələrində ölkəmizin haqq mövqeyini sərgiləyir və sülhsevər siyasəti dünya ictimaiyyətinə mesaj olaraq çatdırılır. Tarixi ədalət bərpa edilib.

Bu gün artıq müharibənin başa çatmasından üç ildən artıq zaman ötüb. Azərbaycan öz sülhsevər siyasətini davam etdirir. Müharibədən sonra təkcə Cənubi Qafqazda deyil, eləcə də dünyada mövqeyini gücləndirən Azərbaycanın beynəlxalq əlaqələri daha da genişlənir.

Ermənistan müasir çağırışlara cavab verməli və XXI əsrdə normal davranışa riayət etməlidir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycanın mövqeyi açıq-aşkardır: "Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik".

### DAYANIQLI MƏSKUNLAŞMA ÜÇÜN MÜASİR VƏ LAYİQLİ HƏYATIN TƏMİNİ

44 günlük Vətən müharibəsində dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini gördü. Mülki, dinc insanların hədəfə alınması, yaşayış yerlərinin dağıdılması erməni vəhşiliyini bir daha dünyaya nümayiş etdirdi. 30 ilə yaxın işğalda qalaraq dağıdılan, talan edilən ərazilərimizdə bu gün Cənab Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində həyat yenidən dirçəlir.

Həmin ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi üçün irimiqyaslı layihələr reallaşdırılır. Erməni barbarlığı nəticəsində məhv edilmiş tarixi mədəni abidələrimiz bərpa olunur: "30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerlə-yeksan edilib",-deyən Prezident bildirib ki, Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər: "Ağdam mövcud deyil, Füzuli mövcud deyil, tamamilə yerlə-yeksan edilib və bunlar - bütün binaların qəsdən dağıdılması və dini abidələrimizin məhvi Birinci Qarabağ müharibəsi zamanı deyil, işğal dövründə törədilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Yerdə qalan 2 məsciddə onlar azərbaycanlıların heysiyyətini təhqir etmək üçün donuz və inək saxlayıblar".





Bəli, müharibədən Zəfər ilə çıxan Azərbaycan əzəli torpaqlarımıza ayaq basanda belə bir mənzərə mövcud idi. Bu gün Azərbaycan o əraziləri abadlaşdırır və əbədi məskunlaşmanı təmin edir.Bu gün o yerlərdən əzəli sakinlərin səsi gəlir. 32 il həsrətlə, intizarla, göz yaşları içərisində gözlədiyimiz Xocalıya dönmüşük.

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

### REGİONAL MƏRKƏZDƏ DAVAMLI İNKİŞAF

Artıq Xocalı yenidən qurulur. Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Bütün kommunikasiya xətləri yerin altına salınıb, ilk 50 evə birləşmələr verilib. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir. Artıq Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Baş Plana əsasən, ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırılır. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır. Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər.

Xocalının Baş planını hazırlayarkən ilk növbədə, onun regiondakı mövqe də nəzərə alınıb. Bura strateji mövqeyə malikdir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu və s. bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.

### ƏZƏLİ SAKİNLƏR ŞUŞANIN QOYNUNDA

Şuşa da yeni dövrünü yaşayır. İşğaldan azad olunan ərazilərimiz Füzuli, Laçın kimi Şuşamız da ilk sakinlərini qoynuna alır. Şuşa şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Otuz iki ildən sonra yenidən Şuşaya qədəm qoyan ailələr bu sevinci yaşayırlar: yurd yerinə qayıdış sevincini. İndiyədək şəhərdə 105 ailə (406 nəfər) mənzillə təmin edilib. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və burada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, müqəddəs şəhər yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəyərlərinə milli-mənəvi islami dəyərlərinə olan ehtiramın nümunəsidir. Ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün güllələnmiş büstləri Şuşaya qaytarıldı. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb.

Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq. Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Şuşanın Baş planı hazırlanarkən orada həyata keçirilən bütün layihələrin tarixlə müasirliyin vəhdəti üzərində qurulması nəzərə alınıb. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb. Hazırda Baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir. Bütün bu işlərə başlamaq üçün, cənab Prezidentin göstərişi ilə əvvəlcə Zəfər yolu, tunellər tikildi. İlk işlər infrastrukturun bərpası üzrə aparılıb. Burada hər şey ermənilər tərəfindən dağıdılmışdı. Şuşa şəhəri mədəniyyət paytaxtıdır. Hazırda orada rəsmi olaraq 196 abidə var. Onların bir çoxunun bərpasına başlanılıb.

Burada bulaqlar bərpa olunur. Hər məhəllədə, - burada 16 məhəllə olub, - məscid, bulaq və hamam olub.

Hamamlardan yalnız biri qalıb, bulaqların hamısı demək olar ki, yararsız vəziyyətə salınıb. Beşmərtəbələr köhnə və əsasən dağılmış vəziyyətdədir. Yeni Baş plana uyğun olaraq, tarixi ərazidə müasir kiçik evlər olacaq. Şəhər məktəbi artıq tikilib və sentyabrda öz şagirdlərini qəbul etməyə hazırdır, 300-ə yaxın şagird burada təhsil alacaq. Şəhər xəstəxanası isə 90 çarpayılıqdır. Payıza qədər onun tikintisi başa çatacaq.

Bütün bu və ya digər amillər bir daha göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərimizdə böyük qayıdış konsepsiyası uğurla və sürətli bir şəkildə həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***

# Milli Qurtuluşdan zəfərə gedən yol



Eldar İbrahimov
Milli Məclisin İntizam Komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü




Bugünkü müasir, güclü və qüdrətli Azərbaycan dövləti çətin, keşməkeşli dövr keçib. Tarixə nəzər salsaq, bunu mövcud faktlar, dəlillərlə sübut etmək olar. Birincisi, ötən əsrin 90-cı illərin əvvəlində Azərbaycanda bütün sahələr də hərc-mərclik, özbaşınalıq, xaos, dövlət idarəçiliyində hakimiyyət uğrunda mübarizə, siyasi çəkişmələr hökm sürürdü. Ölkədaxili xaos və anarxiyadan istifadə edən Ermənistan ardıcıl olaraq torpaqlarımızı işğal edir.. Artıq vəziyyət o qədər çətin və ağır həddə çatmışdır ki, ölkəmiz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdir. Hakimiyyəti zəbt edən AXC-Müsavat cütlüyü isə ağı , üzücü problemləri həll etmək gücünə malik deyildilər. Xalqla təmas qurub problemləri həll etməkdənsə AXC-Müsavat iqtidarı küçələrə çıxıb aparılan səhv siyasətə, Ermənistanın terrorçu fəaliyyətinə etiraz edənləri qəddarlıqla susdurmağa, həbs edib türmələrdə əzməyə çalışırdılar. Bu isə hakimiyyətlə xalq arasındakı uçurumu daha da dərinləşdirirdi. Vəziyyət bir qədər də belə ağır formada davam edəcəyi təqdirdə vətəndaş qarşıdurması qaçılmaz idi. Belə çətin, ağır dönəmdə ölkənin işıqlı ziyalıları bir araya gəlib, Azərbaycanın üzləşdiyi problemləri müzakirə etdilər. Hər kəs ölkənin xilasını Ümummilli Liderimiz Heydər Əliyevdə gördü. Bu məqsədlə 1992-ci il oktyabr ayının 16-da Azərbaycanın 91 nəfər ziyalısı "Səs" qəzeti vasitəsi yeni bir siyasi partiyanın yaradılması təşəbbüsü ilə Dahİ Öndər Heydər Əliyevə müraciət ünvanladılar. Daim xalqının yanında olan Ulu Öndərimiz Heydər Əliyev xalqın çağırışlarına səs verərək müraciəti qəbul etdi və Yeni Azərbaycan Partiyasının yaradılmasına, Onun Sədri olmağa razılıq verdi. Beləliklə, 550 nəfərin iştirakı ilə keçirilən təşəbbüs qrupunun toplantısında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Ulu Öndərimiz Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Bununla da ölkəmizin həyatında yeni və sürətli inkişaf dövrünün əsası qoyuldu. Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

## Milli Qurtuluşdan başlayan tarixi yol

1993-cü ilin iyunun 9-da xalqın tələbi ilə Dahi Öndər Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. İyunun 15-də isə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildi. Bütün çətinliklərə baxmayaraq Ulu Öndər xalqın qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü.Qısa müddətdə ölkədə sabitlik təmin olundu, yeni iş yerləri yaradıldı, hüquqi, demokratik dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı, insan hüquq və azadlıqlarının təmin olunması məqsədilə Fərman və Sərəncamlar verildi, qanunlar qəbul olundu. Ulu Öndərimiz Heydər Əliyev bildirirdi ki, Onun həyatı xalqa məxsusdur: "Mənim həyatım xalqa məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir".Bu baxımdan haqlı olaraq 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu və 1997-ci ildən rəsmi bayram kimi qeyd edilməyə başlandı. Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.Ulu Öndər qısa müddət də Azərbaycanı dünyanın inkişaf edən, nufuzlu dövlətləri sırasına çıxartdı. Azərbaycanı siyasi, iqtisadi və hərbi böhrandan qurtardı. Ümummilli lider 1994-cü il sentyabrın 20-də əsasını qoyduğu "Əsrin müqaviləsi" ilə dünyanın neft siyasətini birmənalı şəkildə Xəzər regionuna istiqamətləndirdi.

Bu yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Heydər Əliyev siyasi uzaqgörənliyinin nəticəsidir ki, indi Azərbaycan dünyanın aparıcı dövlətlərinin iqtisadi maraq meydanına çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Mütəxəssislər haqlı olaraq bu layihəni Azərbaycanın taleyində dövlət müstəqilliyi qədər əhəmiyyətli tarixi hadisə hesab edirlər. "Əsrin müqaviləsi" adlandırılan bu tarixi sənədin imzalanması ilə Azərbaycanın neft strategiyası uğurla həyata keçirilməyə başlandı. Müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. Ölkəmizin iqisadi inkişafında və əhalinin sosial rifah halının yaxşılaşmasında mühüm rol aynayan "Əsrin müqaviləsi" üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi.

Dahi Öndərimiz Heydər Əliyev insan hüquq və azadlıqlarının müdafiəsinə xüsusi önəm verdi. Bu məqsədlə də Ümummilli Lider Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və 1995-ci ilin noyabrın 12-də qəbul edilən Konstitusiyanın əsas hissəsinin insanların hüquqlarının müdafiəsinə, təhlükəsizliyinə, sosial, iqtisadi cəhətdən təmin edilməsinənə həsr olunub. Bununla da ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı.

1995-ci ildən başlayaraq ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 milyard dollara çatmışdır. Bunun da 60 faizdən çoxu xarici kapitalın payına düşür. 1996-2001-ci illərdə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 717-dən 1974-ə, müəssisələrdə çalışanların sayı isə təxminən 15 min nəfərdən 25 min nəfərə çatmışdır. Göstərilən müddətdə, eyni zamanda, xarici investisiyalı müəssisələrin ödədiyi vergilərin payı, cəmi vergi daxilolmalarında 9,3 faizdən 19,7 faizə yüksəlmişdir. Ümumilikdə isə, 1996-2001-ci illərdə həmin müəssisələr vergi və sosial ayırma şəklində büdcəyə təqribən 600 milyon dollar, sosial fondlara isə 400 milyon dollara yaxın vəsait ödəmişlər. Neftin ixracında Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və həyata keçirilən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri xüsusi rol oynamışdır. Bu baxımdan şirkət rəhbərləri 2004-cü ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Uğurlu neft strategiyası sonrakı illərdə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihəsinin həyata keçirilməsi ilə davam etdirildi.

## Milli Qurtuluşdan Qarabağ zəfərinə gedən yol

Bu gün Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş inkişaf siyasəti ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2003-cü il prezident seçkilərində xalq Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin davam etdirilməsinə səs verdi. Dahi Öndərimizi ən layiqli siyasi varisi Cənab İlham Əliyev xalqın 76,84 faiz səsini qazanaraq ölkə Prezidenti seçildi. Prezident İlham Əliyev andiçmə mərasimində demişdir: "Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanıb. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir". Hazırda Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, güclü sənaye və iqtisadi resurslara malik ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. Prezident İlham Əliyevin xalq, dövlət üçün gördüyü möhtəşəm işlər sırasında torpaqlarımızın işğaldan azad edilməsi ön sırada dayanır. Böyük Sərkərdəlik məharəti və uzaqgörən diplomatik fəaliyyəti ilə Cənab İlham Əliyev 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın azadlığına nail oldu. Bu qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılan tarixi səhifə oldu. 2020-ci ildə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. 2023-cü ilin aprelin 23 -də isə Xankəndi-Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd- keçid məntəqəsi quruldu.

Həmin ilin sentyabrın 19-da başlayan və 23 sat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Azərbaycan ordusu Qarabağdakı bütün separatçıları məhv etdi, əsas terrorçular isə həbs olunaraq Azərbaycanın hüquq-mühafizə orqanlarına təhvil verildilər. Hazırda həmin terrorçuların istintaqı gedir və yaxın vaxtlar da məhkəmənin qərarı ilə onlar layiq olduqları cəzaların alacaqlar. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bugünkü möhtəşəm uğurlar, qələbələr 15 iun Milli Qurtuş Gününün nəticəsidir. Bu baxımdan demək olar ki, Ulu Öndər Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlməsi ilə başlayan zəfər yolu Azərbaycan dövlətinə və xalqına işğaldan azad edilən Qarabağımızı bizə qaytardı. Bu zəfər yolu bizə böyük qürur, uğur və nailiyyətlər gətirdi. Əminəm ki, bu yol heç zaman dəyişməyəcək. Nə qədər Azərbaycan dövləti və xalqı var daim millətimiz Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi zəfər yolu ilə gedəcək.

# "Azərbaycan alternativ enerji siyasətini gücləndirir, "Yaşıl enerji"yə böyük önəm verir"



"Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayır. Bu reallıq paytaxtımızda keçirilən Bakı Enerji Həftəsində bir daha səsləndirilib. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji layihələri mühüm əməkdaşlıq platformaları yaratmaqla yanaşı, dünyanın enerji təhlükəsizliyində xüsusi rol oynayır. Bakı Enerji Həftəsində 37 ölkədən 300-dək şirkətin iştirak etməsi də bu reallığı təsdiqləyir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, Azərbaycan karbohidrogen resurslarını şaxələndirilmiş kəmərlər vasitəsilə ixrac edir: "Eyni zamanda, bu məsələdə tranzit ölkə rolunu oynayır. Prezident İlham Əliyev Azərbaycanın böyük neft və qaz potensialına malik ölkə kimi dünya üçün önəmini dəfələrlə vurğulayıb. Azərbaycanın enerji siyasəti həm də Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əməkdaşlıq sistemlərini formalaşdırır. Bu, hamının maraqlarına uyğundur və bu prosesdən bütün dövlətlər bəhrələnə bilir. Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə İtaliya, Yunanıstan və Avropa İttifaqının bir neçə digər ölkəsinə qaz ixrac edir. Bununla yanaşı, digər Şərqi Avropa ölkələri də bu gün Azərbaycandan "mavi yanacaq" almaq niyyətini irəli sürür. Bakıda keçirilən bu toplantıda aparılan müzakirələr gələcəkdə bu coğrafiyanın daha da genişlənəcəyinə əminlik formalaşır.

Millət vəkilinin sözlərinə görə, burada əsas məqam Avropa ölkələrinin Azərbaycandan "mavi yanacaq" və "yaşıl enerji" idxal etmək imkanlarının geniş olmasından ibarətdir: "Bu gün dünyada gedən siyasi-iqtisadi proseslər yeni çağırışları aktuallaşdırır. Bu çağırışların əsasında isə əməkdaşlıq və yeni enerji layihələri dayanır. Statistik rəqəmlərə nəzər yetirsək görərik ki, Azərbaycanın beynəlxalq bazara, əsasən də Avropa bazarına qaz ixracında böyük irəliləyişlərə nail olunub. Prezident İlham Əliyevtədbirin açılış mərasimində çıxışı zamanı bu il ölkəmizin 24 milyard kubmetrdən çox qaz ixrac edəcəyi, 2020-ci ilin dekabrında istifadəyə verilən TAP kəmərinin Azərbaycan qazını Xəzər dənizindəki yataqlardan Avropaya nəql etməsi və onun Cənub Qaz Dəhlizinin bir hissəsi olmasını xüsusi vurğulayıb. Bundan başqa, dövlətimizin başçısı ümumilikdə ixracı nəzərdə tutulan 24 milyard kubmetr qazın təxminən 12 milyard kubmetrinin Avropanın payına düşdüyünü diqqətə çatdırıb. Cənab Prezident bəyan edib ki, Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı var: "2020-ci ilin noyabrında həmin ərazilər azad edildəndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır.

Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir".Sevinc Fətəliyeva qeyd edib ki, proseslər Avropanın Azərbaycan qazına və yaşıl enerjisinə daha çox ehtiyacının olduğunu göstərir: "Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır və bu amil iqtisadi münasibətlərimizin genişlənməsində mühüm şərt kimi çıxış edir. Əlamətdar haldır ki, builki Bakı Enerji Həftəsi "Əsrin müqaviləsi"nin imzalanmasının 30-cü ildönümünə təsadüf edir."Hazırda Azərbaycan alternativ enerji siyasətini gücləndirir, "Yaşıl enerji"yə böyük önəm verir. COP29-un bu il ölkəmizdə keçirilməsi də bunu təsdiqləyir. Prezident İlham Əliyevin tədbirdə dediyi kimi, COP-a ev sahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik. Ancaq biz bu məsələyə sadiqik. Bu il ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın xüsusi diqqət mərkəzində olacaq. Bakı Enerji Həftəsi ilə əlaqədar ABŞ Prezidenti Cozef Baydenin məktubunda da qeyd olunan məqamlar Azərbaycanın dünya miqyasında nüfuzunun əhəmiyyətli dərəcədə artmasının göstəricisidir",-deyə millət vəkili vurğulayıb.

***Ləman Sərraf***

## ABŞ Putinin "təhlükəli xəbərdarlığını" görüb...



...Rusiya lideri Vladimir Putin Ukraynanı uzaqmənzilli silahlarla təchiz etməyin fəsadları ilə bağlı Qərbə ciddi xəbərdarlıq edib. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə Amerikanın "New York Post" qəzeti yazır. Nəşrin qeyd etdiyi kimi, bədnam qorxulu xəbərdarlıq həm ABŞ, həm də Almaniyanın Ukraynaya Rusiya ərazisindəki hədəfləri vurmaq üçün tədarük etdikləri silahlardan istifadə etmək üçün yaşıl işıq yandırdığı bir vaxtda edilib. "New York Post" yazır ki, Putin Rusiya ordusunun nüvə imkanlarını xatırladıb, Rusiyanın suverenliyinə təhlükə yaranacağı təqdirdə bundan istifadə edəcəklərini bildirib.

...Deyim ki, Putinin nüvə arsenalı ilə bağlı bəyanatı kontekst izah edilmədən təkrarlanıb. Qeyd edilməlidir ki, Kremlin mətbuat katibi Dmitri Peskov da bunu qeyd edib.

...Və daha əvvəl Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev vurğulamışdı ki, Qərblə hazırkı hərbi münaqişə ən pis ssenari üzrə inkişaf edir və bu ssenaridə heç kim münaqişənin son mərhələsinə keçidini istisna edə bilməz.

***Nazlı***



**Elçin Bayramlı**

# Ərzaq bazarı: Bahalaşmanın səbəbi nədir?

Mövsümi meyvə tərəvəzin əvvəlki illərə nisbətən xeyli baha olması müşahidə olunur. Həmin meyvə tərəvəzlər qonşu ölkələrdə daha ucuzdur. Dünya bazarında taxılın qiymətinin ucuzlaşması fonunda, ölkəmizdə unun qiymətinin artması da heç cür anlaşılan deyil. Eynilə, ət və süd məhsullarının qiymətinin bahalaşması üçün də heç bir əsas yox idi, əksinə taxılın ucuzlaşması nəticəsində yemlər də ucuzlaşır və ətin və süd məhsullarının maya dəyəri aşağı düşməlidir.

İdxalın artması bahalaşmaya əlbəttə, ciddi təsir göstərir, lakin yerli istehsal məhsulların da bahalaşması davam edir. Azərbaycanda zəruri tələbat məhsullarının təxminən yarısı idxal hesabına formalaşır. Son illərdə bu nisbət idxalın xeyrinə artmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin 1-ci rübündə əvvəlki ilin eyni dövrü ilə müqayisədə mal əti idxalı 2,3 dəfə, kərə yağı, digər süd yağları 19,9%, bitki yağları 51,5%, təzə meyvə idxalı 26,6%, təzə tərəvəz 52,8%, unlu qənnadı məmulatları 24,3% artıb.

Son illərdə ərzaq məhsullarında qiymət artımları tendensiya halını alıb. Hazırda Azərbaycan bazarını ucuz bazar saymaq olmaz. Yerli bazarda əsas tələbat mallarının qiyməti xarici ölkələrdəki ilə eynidir və ya bəzi hallarda ondan da bahadır.

İndi azad bazar dövrü olduğundan hökumət qiymətləri inzibati metodlarla tənzimləyə bilməz və bu səbəbdən bunun qarşısını zorakı yolla almaq çətindir. Ölkədə istehsal olunan, amma əhalinin tələbatını ödəməyən məhsulları özəl şirkətlər və sahibkarlar idxal edirlər. Onlar da hər hansı malı baha alıqda, baha da satmalıdırlar. Kimisə hər hansı məhsulu xaricdən gətirib öz qiymətinə satmağa məcbur etmək olmaz.

Hökumət sosial və iqtisadi mexanizmlərlə bu prosesə təsir edə bilər, ancaq inzibati vasitələrlə heç nə etmək mümkün deyil. Bu problemin həlli yolu ölkədə ərzaq istehsalının yüksəldilməsi və idxaldan asılılığın ləğv edilməsindən keçir.

Qiymət artımında xarici amillərin təsir payı böyük olsa da, daxili amillərin də təsiri olmamış deyil. Bunlardan bəzi istehsal və idxal sahələrində inhisarçılığı və yerli məhsulda qiymət artımını şərtləndirən stimullaşdırıcı tədbirləri göstərmək olar.

Qiymət artımında əsas amillərdən biri inhisarçılıqdır ki, nəticədə bazara süni təzyiqlər artır və mümkün ucuzlaşmanın da qarşısı alınır. Bahalaşma zamanı əhalinin alıcılıq qabiliyyəti getdikcə aşağı düşdüyündən, maya dəyəri baha başa gələn keyfiyyətli məhsulun əvəzinə bazara ucuz və keyfiyyətsiz, hətta saxta məhsullar çıxarılır.

Dünya bazarında bəzi məhsulların qiymətlərinin artması o demək deyil ki, bu, ölkədə ucdantutma bütün məhsulların bahalaşmasına səbəb olmalıdır. Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma asan olur. Belə ölkələrdə əsas tələbat malları ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Məsələn, ABŞ və əksər Avropa ölkələrində, həmçinin, Rusiya və Türkiyədə dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun hətta bazar qiymətinə alınacağı haqda qabaqcadan müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını, və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları ilə tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlimi, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Aqrar sektorun konseptual inkişafı üçün ciddi bir proqrama ehtiyac duyulur. Kənd təsərrüfatı həm ərzaq təhlükəsizliyi, həm də yeyinti sənayesi və yüngül sənayenin inkişafı üçün birbaşa mənbədir.

Azərbaycanda aqrar sektorun inkişafına milyardlarla manat vəsait ayrılır. Dövlət dotasiyalar, subsidiyalar verir, müxtəlif güzəştlər, yardımlar tətbiq edir. Lakin rəsmi statistika və bazardakı vəziyyət göstərir ki, qəbul olunan dövlət proqramlarının icrası effektli aparılmayıb və bu məsələyə daha ciddi diqqət verilməlidir.

# Azərbaycan yaşıl dünyanın keşiyində

***Neft ölkəsi olmasına rəğmən Azərbaycanın yaşıl enerji istiqamətində son bir neçə ildə qət etdiyi yol qənaətbəşxdir. Ölkəmiz beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizə istiqamətində əhəmiyyətli işlər görür.***




Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri ”Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb.








İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə ”ağıllı şəhər”, ”ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Bu məqsədlə ötən ilin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi barədə sərəncam imzaladı.

### Neft ölkəsində COP29

Artıq üçüncü ildir ki, COP konfranslarına neft hasil edən ölkələr ev sahibliyi edir. 2023-cü ildə bu beynəlxalq konfransa ev sahibliyini Birləşmiş Ərəb Əmirliyi, 2022-ci ildə isə Misir etmişdi. Dünyanın ekoloji problemlərini gündəmə gətirən, müzakirəsini aktuallaşdıran bu konfrans neft ölkələrini boşuna seçmir. Azərbaycan kimi neft-qaz ölkələrində ekoloji tarazlığın qorunması üçün daha çox tədbirlərin görülməsini vacib sayan COP, bu istiqamətdə həmin ölkələrin daha çox məlumatlandırılmasını vacib sayır. Sirr deyil ki, qalıq yanacaqların hasilatının azaldılması, getdikcə dayandırılması məqsədi ilə təbliğat aparılır. Azərbaycanın ekoloji məsələlərdə demokratik olmadığını düşünən COP-çular bu yolla iqlim problemlərini gündəmdə saxlamaq istəyirlər.



Prezident İlham Əliyev Azərbaycanın bu konfransa sədrliyi ilə bağlı dediklərindən: ”Neft hasil edən ölkə COP-a sədrlik edir. Sanki, bu, bizim günahımız idi. Mənim isə onlara mesajım ondan ibarət idi ki, bizim neft ölkəsi olmağımız bizim günahımız deyil. Baxın görün, biz bu resurslardan necə istifadə edirik. Əvvəla baxın görün ki, biz bu resurslardan ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması üçün necə istifadə edirik. Sonra baxın görün ki, biz ondan infrastruktur, yaşıl enerji üçün necə istifadə edirik. Beləliklə, bu gün biz sabit neft və artan qaz hasilatına malikik, eyni zamanda, yaşıl enerji layihələrini inkişaf etdiririk”.

### Enerji Həftəsi Azərbaycana nə qazandırır?

Hər il keçirilən və özündə üç mühüm tədbiri birləşdirən Bakı Enerji Həftəsi bütün dünyanın enerji sənayesi sahəsində mövcud olan liderlərini bir araya gətirir və bununla da diqqəti Azərbaycanın üzərinə cəmləşdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimində iştirakı bu tədbirin yüksək statusunu təsdiqləyir. Ənənəvi enerji resursları sənayesini inkişaf etməkdə olan ”yaşıl enerji” istiqamətləri ilə birləşdirən Bakı Enerji Həftəsi bu sahədə irəliləyişlərə və ən yaxşı təcrübələrə zəmin yaradır.

Bakı Enerji Həftəsi enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi bir platformadır. Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqliyyatı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları cəlb edir. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar enerji sahəsində yeni əməkdaşlıqların qurulması, təcrübə mübadiləsi və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək edir.

Ekoloji problemlər və bu problemlərin Yer kürəsi üçün yaratdığı təhlükələr, onların qarşısının alınması yolları, eləcə də yaşıl enerji kimi mövzular Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər proqramında xüsusi yer tutur.

***Lalə Mehralı***

# Avropa Parlamentinə seçkilər, yoxsa?..

***Avropa Parlamenti yenidən formalaşmaq üçün seçkilərə gedir, köhnə və korrupsioner deputatlardan və rəhbərlikdə çalışdıqları müddətdə özlərinə rüşvət yolu ilə milyonlar toplayan liderlərindən azad olmaq istəyir. Hər halda plan belədir. Amma unutmaq lazım deyil ki, rüşvətxor parlamentarilərin heç də hamısı ifşa olunmayıb, yenə seçki marafonuna qoşulmaq üçün dəridən-qabıqdan çıxırlar. "Tutulmamısansa oğru deyilsən" prinnsipi ilə hərəkət edən avropalı deputatlar növbəti cəhd şanslarını sınamaq qərarına gəliblər. Avropa ölkələrində seçkilər də artıq başlayıb. Bəs, "qoca qitə"də seçkilərin gedişi necədir?***




Avropa İttifaqı ölkələrinin xüsusi xidmət orqanları Avropa Parlamentinə seçkilərə təsir göstərməyə çalışan "dost olmayan dövlətlərə" qarşı mübarizə aparır. "Dost olmayan ölkələr"in ictimai rəyi manipulyasiya etmək cəhdlərini diqqətlə izləyir və lazım gələrsə, tədbir görür. Brüsselə görə, səsvermə öncəsi daha çox "məlumat xarakterli xüsusi əməliyyatlar" aparılıb. "Biz müəyyən mövzuda mesajların, retvitlərin və ya bəyənmələrin sayında qəfil artım və ya yeni aktiv istifadəçilərin kütləvi şəkildə meydana çıxması kimi anomaliyaları axtarırıq", "General Intelligence və Tom"un analitiki bu barədə məlumat verib.

Aprel ayında Belçikada Avropa sağ və ifrat sağçı mühafizəkarların görüşü keçirilib. Xarici Kəşfiyyat Xidməti sosial şəbəkələrdən birində yazılan mesajları və şərhləri diqqətlə öyrənib. Aydındır ki, Belçikada baş verən siyasi debata müdaxilə çox güman ki, bu konfrans ətrafında xaos yaratmaq və ya qütbləşməni artırmaq məqsədi daşıyır. İyunun 5-də Polşada Rusiyanın təsirini araşdıran komissiya işə başlayıb. Polşa rəsmiləri bildirirlər ki, ölkədə Rusiya və Belarusun kəşfiyyat xidmətləri tərəfindən görünməmiş fəaliyyət qeydə alınıb.




### İtaliyalılar səsverməyə gedəcəkmi?

Şənbə və bazar günləri - 8-9 iyun - italiyalılar Avropa Parlamentinin 76 üzvünü seçmək üçün səsverməyə gedəcəklər. Sorğulara görə, ölkənin hakim partiyası bu seçkilər ərəfəsində seçicilər arasında ən populyardır. 47 milyon italiyalı səsvermə hüququna malikdir və Avropa Parlamentinə qarşıdan gələn seçkilərdə iştirak edə bilər. Ölkə Aİ-nin qanunverici orqanında beş seçki dairəsində seçilən 76 deputatla təmsil olunur. Bundan əlavə, İtaliya bələdiyyələrinin demək olar ki, yarısında seçkilər keçiriləcək. Builki səsvermə Avropa İttifaqı tarixinin ən çətin dövrlərindən birinə təsadüf edir və İtaliyanın sağçı hökuməti üçün ilk siyasi sınaq olacaq. Hakimiyyət seçkilərdə iştirakdan narahatdır. 2019-cu ildə keçirilən son Avropa seçkilərində bu, cəmi 54% olmaqla rekord aşağı səviyyədə idi.

Siyasi analitiklər deyirlər ki, kampaniya daxili məsələlərə həddindən artıq diqqət yetirir və bu da bəzi seçicilərin marağını itirməsinə səbəb olur. "Biz mühüm keçid dövrünü yaşayırıq. Bu, çox şeyin eyni vaxtda baş verdiyi kritik bir dövrdür. Hər gün dramatik və gözlənilməz hadisələr baş verir və bu da digər insanların həyatına böyük təsir göstərir", - Roma sakini müxbirlə söhbətində bildirib.

### Daha bir neçə rəy:

-Kimə səs verməliyik? Mənə elə gəlir ki, bu namizədlər heç bir şəkildə məni təmsil etmirlər. Məsuliyyət hissi ilə son anda iştirak etməyə qərar verə bilərəm, əks halda özümü günahkar hiss edəcəyəm.

- Namizədlərdən heç birinin mənim maraqlarımı təmsil etdiyini hiss etmirəm. Sadəcə dediklərini edirlər, amma konkretlik yoxdur.

"35 yaşdan aşağı seçicilər arasında vəziyyət daha çox qütbləşir. Səs verəcəklərini deyənlər Avropa Parlamentinə seçkiləri milli seçkilər qədər önəmli hesab edirlər. "Avropalı siyasətçilərin əksəriyyəti əsasən gələcəyə baxır. Ona görə də onlar gənc nəsillə daha çox işləməlidirlər. Ona görə də seçkilərdə iştirak etmək vacibdir. Bu gün üzləşdiyimiz problem odur ki, siyasət çox vaxt gənclərdən çox böyüklərə müraciət edir. Bundan əlavə, institutların əslində necə işlədiyinə dair aydınlıq yoxdur", - deyə gənc öz narahatlığını bölüşüb.

Son sorğular göstərir ki, İtaliyanın əsas müxalifət partiyası şənbə və bazar günləri seçkilərdə müəyyən uğurlar qazana bilər. Baş nazir Giorgi Meloninin "İtaliya Qardaşları" platforması seçkilərdə liderdir. Avropa səviyyəsində qələbə ona ölkə daxilində nüfuzunu artırmağa imkan verəcək.

### Hollandiyada seçki məntəqələri açılıb

Hollandiyada seçki məntəqələri açılıb və Avropa Parlamentinə seçkilərin əsas dövrü başlayıb. İfrat sağçıların qalib gələcəyi proqnozlaşdırılır. Hollandiyada Aİ parlament seçkilərində dörd günlük səsverməyə başlayan seçki məntəqələri açılıb. Bu, bir günlük səsverməyə bu qədər erkən başlayan yeganə ölkədir, lakin cümə günü İrlandiya, həftə sonu isə Aİ-nin qalan hissəsi seçkilərə qatılacaq. 400 milyon vətəndaşın səs verəcəyi gözlənilən seçkilərdə ifrat sağçılar tərəfindən əhəmiyyətli bir irəliləyiş qeyd olunacaq.

Hollandiyada səsvermə Geert Wildersin ifrat sağçı Azadlıq Partiyasının Hollandiya milli parlamentində ən böyük partiya olmasından altı ay sonra baş tutub. Sorğular göstərir ki, Wilders bu populyarlıq üzərində qurulacaq.

### Fransa: seçki kampaniyasında son mərhələ

İfrat sağçı Milli Rallinin lideri Marin Le Pen və partiyanın Avropa Parlamenti seçkilərində aparıcı namizədi Jordan Bardella Parisdə mitinqdə, 2 iyun 2024-cü il. Fransada Avropa Parlamentinə seçkilər üçün kampaniya son mərhələyə qədəm qoyur. Namizədlər gənc seçiciləri və hələ öz fikirlərini formalaşdırmayanları inandırmaq üçün səylərini artırırlar.

İfrat sağçı partiyanın siyahısının lideri Jordan Bardella bazar günü Parisdə 5 min insanın iştirak etdiyi son seçki mitinqini keçirib. Rəy sorğularına görə, bu gün Fransa seçicilərinin 32%-ə qədəri ona səs verməyə hazırdır. Mitinqdə o, partiya lideri Marin Le Penlə birlikdə prezident Emmanuel Makronun hakim Renessans partiyasına qarşı səsverməyə çağırıb.

"Gələn bazar günü səs verməmək Makrona səs vermək deməkdir. Gələn bazar günü səsləri digər seçki siyahılarına səpmək, kiçik partiyalara səs vermək yalnız Makronu gücləndirəcək", deyə Jordan Bardella bildirib. Fransanın baş naziri də öz növbəsində şənbə günü Parisdən kənarda keçirilən mitinqdə seçiciləri ifrat sağçıların yüksəlişinə qarşı mübarizəyə çağırıb. Bunu Avropa Parlamentinə seçkilərdə Renessans siyahısına başçılıq edən Valeri Eye aparıb. Rəy sorğularına görə, Makronun partiyası hazırda Le Penin partiyasından 15 faiz geridədir.

Fransanın baş naziri Qabriel Attal isə bildirib ki, Avropa ölə bilər, çünki bütün qitədə ifrat sağçılar güclənir. Əgər biz heç nə etməsək, evdə passiv tamaşaçı kimi oturub Avropanın tənəzzülünü seyr etsək, Avropa məhv olacaq.

Sosialist Partiyası və Xalq Meydanı dərnəyinin namizədi Rafael Qluksmann rəy sorğularının nəticələrinə görə, Makronun partiyası ilə bərabər addımlar ataraq tərəfdarlarını səfərbər olmağa çağırıb. O, şənbə günü cənubdakı Marsel şəhərində təşviqat aksiyası keçirərək, qərarsız seçicilərin onu dəstəklədiyi təqdirdə seçkidə "böyük, gözəl sürpriz" olacağını vəd edib.

Yaşıllar Partiyasının lideri Mari Toussaint Parisdə seçki kampaniyası keçirib. Müşahidəçilər qeyd edirlər ki, onun partiyası Avropa Parlamentinə daxil olmaq üçün lazım olan 5% səsi ala bilməmək riski yaşayır. Amma o özü optimist olaraq qalır. Fransada Avropa Parlamentinə seçkilərin rəsmi kampaniyası cümə günü başa çatır. Gələn həftə sonu 50 milyona yaxın fransız seçici Brüssel və Strasburqda öz maraqlarını təmsil edəcək yeni Avropa Assambleyasının 81 üzvünə səs verəcək.

***Ardı Səh. 12***

# Avropa Parlamentinə seçkilər, yoxsa?..



© Felix Strosetzki

Əvvəli Səh. 11

### Brüsseldəki status-kvonu poza biləcək üç şey

Brüssel də Avropa Parlamentinə iyunun 6-dan 9-dək keçiriləcək seçki marafonundadır. Rəy sorğuları seçicilərin sağa yellənəcəyini və Brüsseldə güc balansını dəyişəcəyini proqnozlaşdırır. İyunun 6-dan 9-dək təxminən 373 milyon avropalı Avropa Parlamentinin 720 yeni üzvünü seçmək üçün seçkilərə gedəcək. Sorğular göstərir ki, ənənəvi mərkəzçi qüvvələr mövqelərini itirirlər. Bəziləri hesab edir ki, bu, Avropa Parlamentindəki mənzərəni dəyişə bilər və sağçı qanunvericilərə blokun siyasətləri, o cümlədən miqrasiya, iqlim, kənd təsərrüfatı, ticarət və texnologiya kimi məsələlərdə daha çox təsir edə bilər.

Amma çox şey seçkilərdə nələrin baş verəcəyindən və səsvermədən sonra siyasi qüvvələrin necə bölüşdürülməsindən asılı olacaq.

### 1. Sağçıların kəskin yüksəlişi gözlənilirmi?

Miqrasiyanı azaltmağa, iqlim tədbirlərini geri götürməyə və Avropa suverenliyini bərpa etməyə söz verən ifrat sağçı qüvvələr, onların dəstəyinin bütün qitədə artdığını görürlər. Avropa Parlamentində radikal sağlar iki qrupa bölünüb: millətçi Avropa Mühafizəkarları və İslahatçılar (ECR), bu qrupa Giorgi Meloni-nin İtaliya Qardaşları (FdI) və Polşanın Hüquq və Ədalət (PiS) partiyaları, Marin Le Penin Milli Birlik və Geert Vildersin Azadlıq Partiyası daxil olmaqla daha sərt sağçılar daxildir.

Onlar növbəti Avropa Parlamentində bütün yerlərin 20%-ni qazana bilərlər. Radikal sağlar həmçinin Belçika, Fransa və İtaliya da daxil olmaqla altı AB üzv ölkəsində seçkilərdə qalib gəlmək üçün yaxşı mövqedədirlər. Lakin Avropa Parlamentinin sağ qanadı dərindən parçalanıb, qeyri-mütəşəkkildir və Avropayönlü qüvvələrin etimadını qazanmır. Proqnozlar özünü doğrultsa belə, bu partiyalar Aİ səhnəsində əldə etdikləri yeni nüfuzdan istifadə etmək istəsələr, birlik tapmalı olacaqlar.

Səsvermədən əvvəl İtaliyanın baş naziri Giorgia Meloni, solçu tərəfdaşlar onun dəstəyi üçün mübarizə apardıqları üçün kral kimi ortaya çıxıb. Mərkəz sağçı Avropa Xalq Partiyası (EPP) tərəfindən Avropa Komissiyasının sədrliyinə namizədliyi irəli sürülən Ursula fon der Leyen Meloni ilə razılaşmalara hazır olduğunu açıq şəkildə bəyan edib. Alman ikinci müddətə vəzifədə qalmaq üçün onun italiyalı qardaşlarının qanunvericilərinin dəstəyinə arxalana bilər.

Bu, EPP-nin sol və mərkəzdəki ənənəvi müttəfiqlərinin qəzəbinə səbəb olub. Eyni zamanda, fransalı Marin Le Pen də Avropa Parlamentinin sağçı qüvvələrini ifrat sağçı ittifaqda birləşdirmək üçün Meloni-ni təklif edir.



Buraya hazırda Avropa Parlamentində öz siyasi ailəsi olmayan partiyalar, məsələn, Macarıstanın baş naziri Viktor Orbanın Fidesz partiyası daxil ola bilər. Belə bir qrupun yaradılması bir neçə ay çəkə bilər. Amma bu partiyalar fikir ayrılıqlarını aradan qaldıra bilsələr, Avropa Parlamentində ikinci böyük siyasi qüvvəyə çevrilə bilərlər.

### 2. Mərkəzçilər öz mövqelərini qoruyacaqlarmı?

Onilliklərdir ki, mərkəzçi avropapərəst partiyalar birgə işləmək barədə razılığa gəldiklərinə görə Avropa Parlamenti qanunlar qəbul edə bilirdi. Mərkəz sağçı EPP, liberal Yeniləşən Avropa və mərkəz sol Sosial Demokratlar (S&D) həmişə parlamentdə yerlərin rahat əksəriyyətinə nail olublar və bəzi əsas məsələlərdə səs vermək üçün Yaşıllara arxalanıblar.

Onlar heç də həmişə bütün qətnamələrə birlikdə səs vermirlər, lakin bəzən Avropa Parlamentində qanunvericilik fəaliyyətinin rəvan olmasını təmin etmək üçün "müvəqqəti" koalisiyalar yaradırlar. Lakin bu koalisiyanın sağ qalmaqda çətinlik çəkəcəyi proqnozlaşdırılır. Ənənəvi hakim partiyalardan narazılıq daha çox seçicinin diqqətini təkcə radikal sağçılara deyil, həm də radikal sola yönəltməsinə səbəb olur. Avropa Parlamentindəki üç ən böyük fraksiya hələ də mandatların əksəriyyətinə sahib olacaq, lakin bu çoxluq həmişəkindən daha kiçik olacaq. Bu, mərkəzçilərin cəlbediciliyini itirdiyini göstərir. Bu tendensiya daha çox Fransa kimi ölkələrdə özünü göstərir, burada ifrat sağçı Milli Birlik ənənəvi partiyalar hesabına yavaş-yavaş, lakin davamlı şəkildə möhkəm seçici bazası toplayır.

### 3. Növbəti gün nə olacaq?

Avropa Parlamentinin və bütün Aİ təsisatlarının gələcəyi həm səsvermənin nəticələrindən, həm də qarşıdakı həftələr və aylardakı siyasi sövdələşmələrdən asılı ola bilər. Seçkilərin nəticələri güclü icra orqanı olan Avropa Komissiyasının növbəti prezidentinin kimin olacağına təsir etməlidir. Son onillikdə blok siyasi partiyaların Avropa Komissiyasına rəhbərliyə bir namizəd irəli sürdüyü Spitzenkandidaten sistemi adlanan sistemi dəstəkləməyə çalışıb.

EPP-nin Avropanın ən böyük siyasi partiyasına çevrilməsinə az-çox təminat verildiyi halda, onun seçdiyi Ursula fon der Leyen ikinci müddətə hakimiyyətdə olmaq üçün əlverişli vəziyyətdə olmalıdır. Lakin bunun üçün ona yeni Avropa Parlamentinin üzvlərinin mütləq əksəriyyətinin təsdiqi lazımdır. Almanın ənənəvi müttəfiqləri onun Meloni və ifrat sağçılarla son flörtlərinə görə ona qarşı çıxsalar, bu çətin ola bilər.

Avropa Parlamentində səsvermə sentyabrda gözlənilir və gizli olacaq. Fon der Leyenin öz partiyası EPP daxilindəki bəzi milli nümayəndə heyətləri onun əleyhinə səs vermək niyyətindədir. Lakin Aİ liderləri 2019-cu ildə olduğu kimi tamamilə yeni bir namizəd də seçə bilərdilər. Bu o deməkdir ki, AB-də ən güclü vəzifəyə çətin bir adam namizəd ola bilər.

Seçkilərdən sonra Brüsseldə Avropa Şurasına sədrlik kimi digər yüksək vəzifələr uğrunda daha geniş yarış keçiriləcək. Bu vəzifəni hazırda Belçikanın keçmiş baş naziri Şarl Mişel tutur. Avropa Xarici Fəaliyyət Xidmətinə (EEAS) rəhbərlik etmək üçün baş diplomat da təyin olunacaq. Bu rolların bölüşdürülməsi incə bir tarazlıq tapmağı tələb edəcək - gender, coğrafi və siyasi. Aİ liderlərinin üç vəzifəyə namizədlərini müzakirə etmək üçün iyunun sonunda Brüsseldə iki dəfə görüşəcəyi gözlənilir.

*V.VƏLİYEV*



# Babaların babasının babası...



Bu gün babalardan danışaq. Və bugünkü babalarla dünənkiləri, dünənkilərlə də keçmişdəkiləri müqayisə edək. Müqayisə edək, görək, bugünkü babaların babasının babasından nə qalmışdı, onlar öz nəvələrinə nəyi verə bilmişdilər? Babamızın bizə yanaşması necə idi? Və onların nəvəsi olan bugünkü babalar nəvələri ilə münasibətlərini necə qururlar? Beləliklə, keçmişdən bu günə yola çıxaraq ayrı-ayrı dövrlərə nəzər salaq. Lakin onu bəri başdan vurğulayaq ki, keçmişdən, dünən və bu gündən asılı olmayaraq babalar nəvələrini hər zaman çox seviblər. Elə məsələ də bu sevginin üzərindədir. Bu sevgini nəvələrə kim hansı formada təqdim edir zaman-zaman...

## Vaxt var idi ki?..

Bu, həmin vaxt idi ki, biz onu görməmişik. Həmin dövr haqqında kitablardan oxumuşuq, rəvayətlərdən dinləmişik. Vaxt var idi ki, babalar nəvələrini övladlarını necə yetişdirirdisə, eləcə yetişdirməyə çalışarmış. Evdə ki, nəvə dünyaya gəldi, babalar qırx gün şadyanalıq edər, qonaqlıq verər, bütün el-elatı bu qonaqlıqda ağırlayıb-əzizləyərmiş.

Daha sonra uşağa ulu babamızın yaşadığı dövrdə yaşayan Dədə Qorqud tərəfindən ad qoyular, bunun üçün də el mərasimi təşkil olunarmış.



Nəvə qız oldusa, babalar yalnız onun başına sığal çəkər, nağıl söyləyərdi. Ümumilikdə tərbiyəsini isə nənəyə tapşırardı. Nəvə oğlan olanda isə elə ki, həddi-buluğa çatdı, baba hara, nəvə də ora. At minib, ox götürüb, ov ovlamağa, o zamanlar meydanlarda təşkil olunan oxatma, güləş yarışlarına, dağın bağrını yağıb kəndə su çəkməyə, camaatın yığışıb birlikdə el arxını çıxarmağa və sair. Yəni, özünün məsləhət bildiyi hər yerə nəvəsi ilə birlikdə gedərdi babalar.

Babalar həm də nəvələrin nağıl, rəvayət söyləyini idi. Elə ki, axşam oldu, nəvələr babaların şirin avazından süzülən gözəl nağılları dinləmədən yuxuya getməzdilər. Bu nağıllar isə o babaların həyat nağılı idi. Gördüklərini, şahidi olduqlarını nağıl formasına salıb nəvələrinə danışardılar.

Oğlan nəvələr də, qız nəvələr də bu nağıllardan öz payını alardı. Hər gün söylənən yeni-yeni nağılların şirinliyi ilə yanaşı, onların qəhrəmanlarının igidliyi, ərliyi, gücü, mübarizliyi, sadiqliyi, eyni zamanda nağılların xanım qəhrəmanlarının xanımlığı, sədaqəti, kişilərlə birlikdə at çapıb, ox atması, qılınc çəkib düşmən üstünə getməsi nəvələrdə zaman-zaman xarakter formalaşdırardı. Elə bu səbəbdən də Babəklər, Koroğlular, Nəbilər, Həcərlər, Banuçiçəklər... babamızın babası, nənəmizin nənəsi olub. Yəni baba-nənədən aldığı mənəvi qida nəvələrin hər birinin sabahı, gələcəyi olardı. Tarixdə iz salmaları, qəhrəmanlıq, ərlik, igidlik, xanımlıq rəmzinə çevrilməsinə səbəb olardı.

## Babaların babası

Babamızın babası da yaşadığı dövrə uyğun olaraq nəvəsini yetişdirməyə çalışmışdı. Onlara ayırdığı saatlarla vaxt, etdiyi söhbətlər, söylədiyi nağıl və rəvayətlər bu gün baba olanları kifayət qədər həyata hazırlamaq məqsədinə xidmət edə bilmişdi.

Babamızın babası nəvəsi yanında yaşayırdısa, onunla birgə həyat sürür, özü nə işlə məşğul olardısa, nəvələrinə də onu öyrədərdi. Müəllim olan müəllimliyi, dülgər olan dülgərliyi, zərgər olan zərgərliyi, misgər olan misgərliyi, nalbənd olan nalbəndliyi, çoban olan çabançılığın sirrini nəvələrinə aşılayardı. Nəvələr də bu peşə və sənətlər qəlbinə yatardısa, zamanla babasının yolunu davam etdirərdi.

Nəvələr babalarla birlikdə yaşamayanda, əgər yaxın məsafədə idilərsə, babagilə gələr, gününü baba ilə birlikdə keçirərdi. Beləliklə də baba öz həyat tərzindən nəvəsinə pay verə bilirdi. Odur ki, nəvələr həm xasiyyət, xaraktercə, həm də bacarığı ilə babalarına çox bənzəyərdi.



Nəzərə alsaq ki, nəvələr babaların şirin söhbətlərini, heyrətamiz nağıllarını dinləməklə böyüyür, onların ibrətamiz öyüd-nəsihəti ilə boya-başa çatır, bu zaman bugünkü babalardan söhbət açaq.

## Bugünkü babalar...

Çox təəssüf ki, müasir dövrdə həyatımızın bütün sahələrində olan dəyişiklik baba-nəvə münasibətindən də təsirsiz ötməyib. Bu gün artıq babaların əksəriyyəti nə nağıl danışır, nə rəvayət. Onlar nəvələrinə çox az vaxt ayırır. Ayıranda isə bu vaxt nə onun babasının, nə də babasının babasının ayırdığı vaxta əsla bənzəmir.

Bu gün cəmiyyətimiz necə internet dünyasının gətirdiyi sosial bəlaların qurbanı olubsa, nəvələr də təəssüf ki, qurbanların bir parçasıdır. Birincisi, bu gün gənclər daha çox ayrı yaşamağa üstünlük verir. Bu da nəvələrin nənə-babadan ayrı yaşaması, onları həftədə bir-iki dəfə görməsi ilə nəticələnir. Bir yerdə yaşayanlar da var. Fərq etməz, bu gün baba-nəvə münasibətləri necə qurulur?

Bu münasibətlər etiraf edək ki, əvvəlki baba-nəvə münasibətlərindən xeyli fərqlənir. Düzdür, o dövrlərin ənənələrini bu gün də saxlayan, yaşadan babalar var, lakin təəssüf ki, onlar az saydadır. Bu gün əksər baba nəvəsinə nağıl danışmaq əvəzinə, telefonunu onun əlinə verib bir küncə çəkilməsinə şərait yaradır. Özü isə televizor qarşısında əyləşir, boş vaxtını bu cür keçirir. Eyni zamanda, həm də babalar sanki nəvə sevgisini ona telefonunu verməklə qazanmaq istəyir. Hansı ki, bu sevgi vaxtilə babaların nəvələrinə verdiyi dəyərlərimizlə yaranırdı. Qəhrəmanlığı, igidliyi, Vətənə, torpağa, zəhmətə, insanlığa sevgini özündə təcəssüm etdirən milli nağıllarla aşılanırdı. Babaların nəvəsinin əlindən tutub çıxardığı gəzintilərdə onun hər gördüyü üçün yeni bir sualına yorulmadan verilən cavablar əsasında yaranırdı. Bununla həm də nəvələrin dünyagörüşü formalaşırdı.

Bəs indi? Nəvələrin əlinə verilən telefonlar onlara nəyi aşılayır? Özbaşınalığı, istədiyi hərəkəti etməyi, ətaləti... Süjet xətti səs-küy, qəddarlıq, qan-qada olan cizgi filmlərinə baxmaqla insanlığı unutmağı, əlinin bir andaca Tik-rok kimi sosial şəbəkəyə dəyməsi ilə qarısına çıxan iyrənc videoları vaxtından əvvəl görüb vaxtından əvvəl gözünün açılmasını aşılayır...

Bu gün babalar arasında nəvə sevgisini ona mağazadan hədiyyələr almaqla qazananlar var. Hansı ki, illər öncə bu hədiyyə babanın nəvəsinə mənəvi dünyasından verdiyi pay idi. Vaxtilə baba hədiyyəsi öz əlləri ilə ağacdan dərdiyi bir alma, bir armud, düzəltdiyi ox-kaman, oyuncaq maşın, araba olardı. Bu gün isə onları sağlamlığa ziyanı bildiyimizdən də artıq olan cipsi, şirniyyat, şirin sular, qorxunc oyuncaqlar əvəz edir...

## Beləliklə...

Bu qənaətə gəlmək olur ki, həyatımızdakı bütün məsələlər kimi, baba-nəvə münasibətlərindən də çox az əsər-əlamət qalıb. Biz nəvələrimizin ata-anasını övladı ilə düzgün davranmağa, onları ziyanlı və zərərli vərdişlərdən uzaq tutmağa cəlb etməli olduğumuz halda, öz səhv hərəkətlərimizlə nəvələrin gələcəyini valideynləri ilə birlikdə məhv edirik.

Nə üçün babalar öz babalarını xatırlamırlar? Nəvələri ilə keçirdikləri vaxtı babasının onunla keçirdiyi vaxta oxşatmırlar? Bilə-bilə ki, telefon uşaqların bədbəxt gələcəyi deməkdir, lakin bunu onların əlinə verirlər. Məgər nəvə sevgisi bu cür qazanılır? Bilə-bilə ki, marketdən qucaq-qucaq aldıqları "hədiyyələr" onların sağlamlığı üçün təhlükədir, lakin yenə də alırlar...



Hələ bütün bunlar bir yana, nəvəsinə söyüş öyrədən, onun məclisdə, qonaqlıqda söyməyi ilə qürur duyan babalar da var. Hansı ki, vaxtilə babalar tərəfindən söyüş deyil, dəyərlər aşılanıb. Bu dəyərlər hansı şəkildə qəbul edilib bəziləri üçün görəsən?..



## Kaş ki...

Kaş babamızdan öyrəndiyimizi, eşitdiyimizi nəvələrimizə aşılaya bilərdik. Kaş onların əlinə telefon verib başımızdan etməkdənsə, qarşı-qarşıya əyləşib şahmat oynaya bilərdik...

Kaş ərinib nəvəmizə oxumaq istəmədiyimiz nağıl kitablarının bircə sətrinin o telefonlarla keçirdiyi vaxtdan dəfələrlə əhəmiyyətli olduğunu anlaya bilərdik.

Kaş nəvəmizlə birlikdə gəzintiyə çıxarkən onun sual yağışında islanmayıb, hər birini yetərincə cavablandırmağın gələcək üçün yağışdan sonra doğan günəş qədər faydasını anlaya bilərdik. Kaş sevginin nəvəmizin sağlamlığı üçün zərərli olan "nemətlərdə" deyil, bir alma, bir heyva, bir armudda... olduğunu, bir nağılda, bir rəvayətdə gizləndiyini anlaya bilərdik.

Kaş öz əyləncələrimizə ayırdığımız vaxtdan kəsib nəvələrə verə bilərdik. Bu, həm özümüz, həm də onlar üçün gözəl mənəvi istirahət olardı.

Kaş o babalardan bu babalara yadigar qalanlar belə tez sıradan çıxmazdı.

Bəlkə arzulayaq ki, o babalar geri qayıtsın? Babaların babası... Arzulayaq, bəlkə arzumuza nə vaxtsa, çataraq...

***Mətanət Məmmədova***

# Belçika polisi Arif Məmmədovu Azərbaycana təhvil verməyə hazırlaşır

Əfqan Muxtarlının yazdığı statusa görə "söyüş müxalifətinin" üzvü Məhəmməd Mirzəli haqqında cinayət işi qaldırılıb



Azərbaycanda sosial -iqtisadi sahədə uğurlar artdıqca və hüquqi-demokratik inkişaf yüksəldikcə yerli və xarici məkrli qüvvələrində ölkəmizə qarşı qarayaxma kampaniyası genişlənir. Məkrli dairələrin sifarişlərinə boyun əyən dağıdıcı müxalifət və xaricdəki antimilli ünsürlər hər gün internet TV-lər və sosial şəbəkələr vasitəsi ilə Azərbaycanla bağlı beynəlxalq ictimaiyyəti çaşdırmağa xidmət edən dezinformasiyalar paylaşırlar. Lakin görünən ondan ibarətdir ki, nə qədər cəhdlər göstərilsə də, Azərbaycanın dünya miqyasında artan nüfuzuna xələl gətirə bilmirlər. Çünki çoxluq anlayır ki, Azərbaycan haqq yolundadır və dövlətin apardığı siyasət bəşəri dəyərlərə söykənir. Nəticənin dağıdıcı müxalifət və xarici antimilli ünsürlər üçün uğursuz olması səbəbindən tərəflər arasında ciddi konfliklər yaranır. Artıq bəzi fondlar antimilli ünsürləri maliyyələşdirməkdən imtina edirlər. Müsavatın keçmiş başqanı Arif Hacılının saxta üzvlük vəsiqəsi hesabına xaricdə"siyasi mühacir" kimi məskunlaşan Əfqan Muxtarlının yazdığı statusa görə artıq "söyüş müxalifəti"nin üzvü Məhəmməd Mirzəli haqqında cinayət işi qaldırılıb. Ə.Muxtarlının fikirlərinə istinadən demək olar ki, M.Mirzəli Almaniyada oturub yalnız Azərbaycan vətəndaşlarını təhqir etmir, həm də Almaniyanın siyasi fəallarını da jantaj edir və bu yolla onlardan pul almağa çalışır. Yenə də Ə.Muxtarlının fikirlərinə əsaslansaq, yaxın vaxtlarda M.Mirzəli Almaniyadan Azərbaycana deportasiya olunacaq. Təbii ki, M.Mirzəli Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verilsə burada onun başını sığallayıb, "xoş gəlmisən" deyən olmayacaq. Qanunvericiliyin tələbinə uyğun olaraq onu burada sorğu -sual və ciddi hüquqi tədbirlər gözləyir.

## Arif Məmmədov, Trol Sadıqlı, Beydulla Manaflı və digər pozucu məxluqlar Məhəmməd Mirzəlini sərt şəkildə tənqid edirlər

Proseslərə və baş verənlərə əsasən demək olar ki, M.Mirzəli deyilən məxluq "söyüş müxalifət"in formalaşdırdığı şəbəkə daxilində belə arzuolunan şəxs deyil. Vaxtaşırı olaraq Arif Məmmədov, Trol Sadıqlı, Beydulla Manaflı və digər pozucu məxluqlar Məhəmməd Mirzəlini sərt şəkildə tənqid edirlər. Trol Sadıqlı açıq mətnlə M.Mirzəlinin işverən və qeyri-səmimi birisi olduğunu bildirib. Düzdür, bu sözün kökündə M.Mirzəlinin T.Sadıqlıya böyük məbləğdə pul atması dayanır. M.Mirzəli isə T.Sadıqlının haqqında söylənilən ittihamların əsasız olduğunu sübut etməyə çalışaraq bildirib ki, əslində, T.Sadıqlı ona çatmalı olan qrantı mənimsəyib. M.Mirzəli paylaşdığı statusunda yazır: "Mən heç zaman bunu yazmazdım, özün məcbur etdin. Sən özünü ifşa etmək qərarına gəldin, davam elə. Mənim də deyəcəyim şeylər olacaq. Qrantı aldın, nə qrant verən təşkilatın adını açıqladın, nə aldığın qrantın məbləğini dedin, məni efirə çıxarıb məndən pul qazandın. Mən də sənin bu əməlinə qarşılıq olaraq öz videolarımı youtubdan sildirdim. Mən bu işləri pulsuz görən adamam, biz qrant gəlməsə belə birgə nəyəsə razılaşsaydıq, təbii ki, işlər görüləcəkdi. Amma məsələnin mahiyyəti budur ki, sən məndən istifadə etdin, "xalqın layihəsi"ni də qrant üçün etdin, mən bu dəqiqənin özündə belə "xalqın layihəsi"ni etməyə hazıram, pulsuz-parasız gəl edək, digər səhifələri də çağıraq". Bir sözlə, M.Mirzəli Trol Sadıqlının maskasının hansı rəngdə və formada olduğunu nümayiş etdirməyə çalışır.

## Belçika agent şəbəkəsi Arif Məmmədovdan imtina edir

Xaricdə müxtəlif qaranlıq guşələrdə gizlənib, Azərbaycana qarşı şər və böhtanlar səsləndirən antimilli ünsürlər bir məqamda onlardan istifadə edənlər tərəfindən satışa çıxarılacaqlarını anlamırdılar. Lakin kimlər anlamasalar da gərəkdir ki, nənəsi və babası erməni olan Arif Məmmədov başa düşməli idi. Nədə olmasa erməni ünsür kimi bic və hiyləgər olan, həm də "diplomatiya" dərslərini mənimsəmiş Arif Məmmədov anlamalı idi. Görünür, fərsiz və problemli məxluqlardandır. Digər tərəfdən elimizin bir məsəli var, deyir "hiyləgər tülki quyruğundan tələyə düşər". Arif Məmmədov nə qədər hiyləgərlik və biciklər etsə də, nəhayətdə özünü güdaza verməli oldu. Yəni, artıq Belçika hüquq-mühafizə orqanları A.Məmmədovun işindən və fəaliyyətindən razı qalmadıqlarından ondan imtina etməyə qərar veriblər. Bu isə onu deməyə əsas verir ki, A.Məmməov da digər xaricdəki antimilli ünsürlər kimi Azərbaycana deportasiya olunacaqlar. Digər tərəfdən onu da nəzərə almaq lazımdır ki, Hesablama Palatasının yoxlamalarının nəticəsi olaraq Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə olunan müraciət əsasında dələduz məxluq haqqında cinayət işi qaldırılıb. Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış araşdırmalarla həmin faktlar öz təsdiqini tapıb və toplanmış materiallar üzrə Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. Aparılmış istintaqla A.Məmmədovun qulluq mövqeyindən istifadə etməklə külli miqdarda dövlət vəsaitini mənimsəmə və ya israf etməklə talamasında, rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığı və digər cinayətləri törətməsində şübhələr üçün əsaslar olduğundan, ona Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 313 (vəzifə saxtakarlığı) və 326.1-ci (rəsmi sənədləri, ştampları və ya möhürləri oğurlama, məhv etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib. Hazırda onun tutulub istintaqa cəlb edilməsi üçün "İnterpol"un Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Milli Mərkəzi Bürosu tərəfindən zəruri istintaq və əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Belçikanın xüsusi xidmət orqanlarının Arif Məmmədovdan imtina etmələri onu deməyə əsas verir ki, "İnterpola"a ehtiyac olmayacaq. Yəni, Belçika hüquq-mühafizə orqanları onu həbs edib, lazımsız adamcığaz kimi ölkəmizin güc strukturlarına təhvil verəcəklər.

**İLHAM ƏLİYEV**

# Uşaqlar üzərində sevgi və qətiyyəti necə tənzimləmək olar?



## PSİXOLOQ İZAH ETDİ

"Uşaqlarda sevgi və qətiyyətin tarazlaşdırılması onların sağlam inkişafı üçün vacibdir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla İsmayılova deyib. O bildirib ki, buradakı önəmli nüans sevginin miqdarı deyil, onun necə və hansı formada göstərilməsidir. Burada hansı valideyn tipində olduğunuz önəmlidir.

Avtoritar valideynlər meydan oxuyurlar, qaydalar qoyurlar və itaət gözləyirlər: "Mənə mane olma", "Otağını təmiz saxla", "Gecikmə, yoxsa cəzalandırılacaqsan". Niyə? "Çünki mən belə deyirəm, belə istəyirəm".

Mülayim valideynlər isə məhdudlaşdırıcı deyil. Az tələb edir, sərhədlər, qaydalar yoxdur. Onlar uşaqlarına qarşı laqeyd, reaksiyasızdırlar. Avtoritar valideynlər həm tələbkar, həm də anlayışlıdırlar. Onlar qaydalar təyin etməklə nəzarəti təmin edirlər, sevgi və sərhəd balansı tarazlaşdırılmışdır".

Uşaqlarda sevgi və qətiyyəti tarazlaşdırarkən nəzərə alınmalı olan bəzi məqamlar var:

1. Şərtsiz Sevgi:

Uşaqlar şərtsiz sevildiklərini hiss etməlidirlər. Bu, onlara inam və sağlam özünə hörməti inkişaf etdirməyə kömək edir.

2. Sərhədlər və İntizam:

Uşaqlar sərhədlərin nə olduğunu oyrənməlidirlər. Bu, onların təhlükəsizliyini təmin edir və sosial normaları öyrənməyə kömək edir.

3. Məsuliyyətli olmaq uşaq yetişdirmədə ən önəmli faktordur.

4. Usaqların yaxşı davranışını mükafatlandırmaq onlarda bu davranışları təkrarlama ehtimalını artırır.

5. Valideynlərinin davranışlarının uşaqlar tərəfindən müşahidə edildiyini və təqlid edildiyini unutmamalıdırlar.

Sevgi və sərhədlər, nizam-intizamın tarazlaşdırılması, aydın qaydaların ardıcıllıqla tətbiqi gələcək üçün uşağın sağlam fərd kimi inkişafına təkan verir. Unutmamalıyıq ki, hər şeyin artığı israfdır, balansı qurmaq önəmlidir" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

## FELYETON



# Adı nədir?..

-Ay, nə qəşəng qızdır bu, adı nədir?
-Kumsaldeniz.
-Allah saxlasın.

***

-Bu gözəl qızın adı nədir?
-Medina.
-Maşallah.

***

-Nə şirin əkizlərdi bunlar, adları nədir?
-Manisa, Peykər.
- Allah xoşbəxt etsin.

***

-Bu nə gözəl oğlandı, adı nədir?
-Dominik.
-Allah qorusun.

***

-Allah saxlasın, nə şirin oğlunuz var, adı nədir?
-Ronald.
-Adı ilə böyüsün.

***

-Hüqo, Alfanso, qaçmayın, yıxılarsınız.
-Bağışlayın, Allah saxlasın, nə gözəl uşaqlarınız var.
-Çox sağ olun.
-Adlarını necə dediniz?
-Hüqo, Alfanso.
-Maşallah.

***

-Seva, Cana, yanıma gəlin, çox aralanmayın.
-Maşallah, nə gözəl qızlardır bunlar.
-Çox sağ olun.
-Əsl adları nədir?
- Elə Seva, Canadır da.
-Hə, anladım, adları ilə böyüsünlər.

***

-Ay, maşallah, nə gözəl övladlarınız var. Allah saxlasın. Əkizdirlər?
-Çox sağ olun, Amin, yox bir-birindən bir yaş fərqləri var.
-İkisi də oğlandır?
-Yox, Barbare qızdır, oğlan Stefanedir.
-Eləmi? Maşallah.

***

-Oğlum, Samuel, buraya gəl.
-Maşallah, böyük oğlan olsun.
-Çox sağ olun.
-Adını kim qoyub?
-Babası...

***

Ana:
-Aziz, Aminə, Mehdi, uzağa getməyin.
-Allah saxlasın, nə gözəl adları var uşaqlarınızın.
-Çox sağ olun. Hə, Azizin adını atası, Aminənin adını nənəsi, Məhdinin adını mən qoymuşam.
-Maşallah.

***Mətanət Məmmədova***
*P.S. Söhbət Bakıdan gedir...*

# Kaş insanlıq da dəb olaydı



ESSE

Nitşe deyir ki, insanlar bir-birini parçalamamaq üçün əxlaq anlayışını yaradıb, amma əslində, ən vəhşi canlı elə insandır. Doğrudur, biz danışırıq, düşünürük, heyvanlarla bizi fərqləndirən də məhz bu iki təməl özəlliyimizdir. Əslində, heyvanlar da düşünür, bəs onları insanlardan fərqləndirən nədir? Niyə onların haqqında danışanda vəhşi olduqlarını gözə soxuruq, insanların haqqında danışanda isə ən yaxşı cəhətlərini vurğulayırıq, öz etdiklərimizin qarşısından pərdə asırıq.

İnsan yeganə məxluqdur ki, öz növünə - başqa insanlara zərər yetirir. Bununla da kifayətlənmir, digər canlılara, dünyaya və kainata zərər verir. Biz ekoloji sistemə xeyirdən çox ziyan vururuq, başqalarının haqını, hüququnu pozur öz mənfəətimizi düşünürük. Bütün kainatın bizim üçün yaradıldığına əminik, özümüzü bütün canlılardan üstün sayırıq, dünyanın ağası kimi davranırıq. Biz insanlar, öz maraqlarımız naminə bütün canlıları görməzdən gələ bilirik. Doğrudur, biz yer üzündəki bütün canlılar arasında ən sistemli həyat forması yaşayırıq, amma bu o demək deyil ki digər canlılar ağılsızdır və yaşamaq haqları yoxdur. Biz zəkalıyıq, doğrudur, amma eyni zamanda yaşamaq üçün öldürən və daha çox öldürmək üçün yeni yollar axtaran vəhşi varlıqlara çevrilmişik.

Bir çoxumuzun içində sevgi olsa da, bəzilərimiz o sevgini boğub, qəzəbə, nifrətə çevirir. Kimimiz sevgi ilə hər şeyin öhdəsindən gələ biləcəyini düşünür, kimimiz bütün aqressiyamızı başqasına yönəldərək zorakılıq tətbiq edir. Biz məğlubiyyəti qəbul edən kimi görünürük, əslində içimizdə əks hücuma hazırlaşan canavar yatır.

Biz kürkü, dərisi, dişi, buynuzu üçün başqa canlıları qətl edə bilirik, marka bir ayaqqabı, yumşaq tüklərі olan bir palto, bərq vuran bir çanta üçün günahsız canlıları qanına qəltan edirik. Bəlkə də kürkdən istifadə edən insanların çoxu xəz heyvanların məruz qaldığı şiddəti, ağlasığmaz işgəncələri və həyat şəraitini əvvəllər bilməyə bilərdi, lakin informasiya əsrində bunu bilməmək mümkün deyil. Amma fikirləşirəm, heyvanların kürkünü əlindən almaq üçün onlara yaşadılan qəddarlığı bilsə, kürkdən uzaq durmaq bir yana, bu biznesə nifrət edən nə qədər həqiqi insan var dünyada?

Buğa döyüşünü düşünün. Nə qədər qəddar görününr o meydanda buğalar, elə deyil? Amma onu o həddə gətirən insandır. Döyüşdən əvvəl öküzün qulaqlarına yaş qəzetlər doldurulur, görmə keyfiyyətini bulanıqlaşdırmaq üçün gözlərinə vazelin sürtülür, nəfəs almasını çətinləşdirmək üçün burun dəliyinə pambıq basılır və cinsiyyət orqanına iynə yerləşdirilir. Təsəvvür edirsiniz? Bədən tarazlığını itirməsi üçün ayaqlarına yandırıcı maddə sürtürlər. Döyüş günü çaşqınlıq yaşasın deyə bir neçə gün əvvəldən dar, qaranlıq yerdə saxlayırlar.

Döyüş günü o buğalar meydanda niyə elə sürətlə qaçır, bilirsiniz? Çünki həmin an dar və qaranlıq yerdən çıxarılıb, gözünə sürtülən vazelinə görə işığı bulanıq gördüyü üçün aydınlığa çatmaq üçün durmadan qaçır, bu yolda manea olsa işığa çata bilmək üçün o maneəni əzməyə hazırdır. Ayaqlarındakı yanma hissi, cinsi orqanındakı iynə ona dəhşətli ağrı verir. Üstəlik, meydanda onu əsəbləşdirmək üçün insanlar əllərindən gələni edir, ona ağacla, dəyənəklə, qamçı ilə, qılınc ilə xətər yetirirlər. Hər zərbədə o daha da acıqlanır, daha çox hücum edir. Yaralanır, qanı azaldıqca qüvvəsi tükənir, ya elə meydanda ölür, ya da sonra öldürülür. Bütün bunlardan sonra o insanlar əyləncəli gün keçirmişcəsinə evlərinə dağılırlar. İndi kimdir vəhşi?

Ətrafımızdakı yaşıllığı qətl edib beton konstruksiyalar quraşdıranlar, insanlığı o daş divaralara həbs edənlər, heyvanlara işgəncə verənlər, gücünü zəifə göstərənlər, körpələrə təcavüz edənlər - hamısı insandır, hamısı bizdəndir. Heç bir vəhşi heyvan insan qədər qəddar deyil, elə deyilmi? Hər şeyə ayaq uyduran, hər yenilikdən nəsib alan insanlar niyə insanlığı dəb etmir, yaymır, təbliğ etmir? Axın dünyanın ehtiyacı olan ən böyük dəyişiklik, ən lazımlı yenilik insanlığın dəbə minməsidir.

Bəşəriyyətin, insanların və heyvanların rəhmə, insafa, mərhəmətə ehtiyacı var. Bəşəri mərhəmət, qlobal əxlaq bərpa edilmədikcə dünya çox müharibə görəcək, hələ çox qanlar töküləcək. İnsanlar arasında gedən müharibələrin kökündə dilsiz-ağızsız heyvanlara edilən işgəncələr dayanır çünki. Dünyanın səması o heyvanların ah-naləsi ilə əks-səda verir.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Dmitri Solonnikov: "Ermənistanın Qarabağı qaytarması heç bir halda mümkün deyil"

## "Xandəndidə baş konsulluğun açılması Rusiyadan Qarabağ münaqişəsinin səhifəsinin çevrildiyi haqda mesajıdır"

Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Rusiya-Ermənistan münasibətlərinin perspektivlərini və Ermənistandakı etirazlarla bağlı vəziyyəti şərh edib. Politoloqun müsahibəni oxucularımıza təqdim edirik.

***- Bilirsiniz ki, Rusiya bir müddət əvvəl mürəkkəb olan ikitərəfli münasibətlər fonunda Ermənistandakı səfirini məsləhətləşmələr üçün geri çağırıb. Eyni zamanda, Rusiya lideri Ermənistanın baş nazirinə zəng edərək onu ad günü münasibətilə təbrik edib və gələcək müttəfiqliyə ümid etdiyini bildirib...***

- Moskva Ermənistan Respublikası ilə münasibətlərin korlanmasının təşəbbüskarı deyil. Rusiya Federasiyası hesab edir ki, MDB, Aİİ və KTMT-də münasibətləri daha da gücləndirmək lazımdır. Bu kurs Moskva üçün vacibdir. Eyni zamanda biz görürük ki, İrəvanın qərbyönlü, bəzən də anti-Rusiya siyasətinə qarşı ictimai tənqidlər var.

Mən deyərdim ki, Moskva, o cümlədən erməni tərəfdaşları ilə çoxşaxəli əməkdaşlıq üçün imkan pəncərəsi buraxaraq balanslaşdırılmış siyasət yürütməyə çalışır. Bu gün beynəlxalq, siyasi və iqtisadi xəritə dəyişir. Bu fonda Rusiya üçün qonşuları ilə qarşılıqlı əlaqəni inkişaf etdirmək və ümumi inteqrasiya institutlarını inkişaf etdirmək vacibdir. Rusiyanın Ermənistana münasibəti ondan qaynaqlanır ki, indiki hakimiyyət başqa, xalq başqadır. Xalqla münasibətlər isə tarixən inkişaf edib.

Rusiya Paşinyanla Moskva üçün faydalı olan sahələrdə əməkdaşlığı davam etdirəcək. Öz növbəsində bu əməkdaşlıq nə dərəcədə çevik olacaq? Mən İrəvanın qərbyönlü siyasətinin dəyişəcəyinə ümid etməzdim. Amma eyni zamanda hazırkı baş nazir Rusiya ilə hansısa münasibətləri saxlamağa çalışmağa davam edəcək.

"Qarabağ kartı"ndan fəal şəkildə istifadə etməyə çalışan müxalifət hərəkatının perspektivlərindən danışsaq, onun tarixi geri qaytara bilməyəcəyi göz qabağındadır. İndiyədək bu, heç bir ciddi təşkilatçılığa malik olmayan, ciddi maliyyə və informasiya dəstəyi olmadan, əsasən, kortəbii çıxışdır. Əksinə, bu, bir növ "küçə fonu"dur. Ciddi bir şey yoxdur və olmayacaq. Müxalifətin etirazları iki səbəbə görə hökumətin devrilməsinə gətirib çıxarmayacaq: əvvəla, bu, qanuni yolla, Nazirlər Kabinetinin istefası, parlament vasitəsilə həyata keçirilməlidir və parlamentdə müxalifət çoxluğu yoxdur, baş nazir parlament üzərində tam nəzarətə malikdir.






Küçədən devrilmənin baş verməsi üçün sxem Kiyevdəki kimi olmalıdır: Qərbin kəşfiyyat xidmətləri tərəfindən dövlət çevrilişi təşkil edildikdə: pul olanda, dünyanı dolanmaq üçün Soros və USAID-in pulu ilə lazım olan nöqtələrə gedən mütəxəssislərin köməyi ilə. Eyni şəkildə bu adamlar Paşinyanı hakimiyyətə gətirdilər.

Müxalifətin vəziyyətində güclü şəkildə maliyyələşdirəcək, rəhbərlik edəcək, yönləndirəcək bir mərkəz yoxdur. Ona görə də küçələrdə heç nəyə nail olunmayacaq. Real dəyişikliklər olmayacaq.

Şou kampaniyalar bir müddət davam edəcək, lakin tədricən sönəcək. Əgər bunlar parlament seçkiləri ərəfəsində baş tutsaydı, bəlkə də bir şey olardı. Ermənistanda yaxın vaxtlarda seçki olmayacaq. Ona görə də indiki mitinqləri daha çox doldurulmuş şardan havanı buraxmaq fürsəti kimi şərh etmək olar.

Qarabağı və digər əraziləri Ermənistana qaytarmaq heç bir halda mümkün deyil. Rusiyaya da bu lazım deyil. Bu heç kimə lazım deyil. Hamı başa düşür ki, bu çevrilmiş səhifədir, biz irəli getməliyik. Rusiyaya regionda sabitlik lazımdır. Ona Zəngəzur dəhlizi, Şimal-Cənub nəqliyyat dəhlizi, iqtisadi əlaqələr, Türkiyəyə, Aralıq dənizinə çıxış lazımdır. Moskvanın qeyri-sabitliyə qəti ehtiyacı yoxdur.

"Qarabağ kartı" qismən istifadə oluna bilər. Qarabağın gündəmi zaman kimi köhnədir. İnsanlar sadə şüarları sevirlər. Bəs bu cür taktikalar nəyə gətirib çıxaracaq? Heç bir şeyə. Müxalifətin nə resursları var, nə də xarici siyasətdə müttəfiqləri. Bunu hər kəs mükəmməl başa düşür.

***- Bunun fonunda Rusiya Xankəndinin özündə də baş konsulluq açacaq ki, bu da Azərbaycan üçün siyasi və mental baxımdan əhəmiyyətlidir... Niyə məhz Xankəndi? Bəs bu, Rusiya-Azərbaycan münasibətləri üçün nə deməkdir?***

- Xankəndi Azərbaycan üçün əlamətdar yerdir və bu, Bakı üçün Rusiya Baş Konsulluğunun burada yerləşməsinə icazə vermək üçün ciddi qərardır. Bu, Azərbaycanın tərəfindədir və Rusiyaya siyasi və təhlükəsizlik tərəfdaşı kimi çox mühüm etimadın təzahürüdür. Bu da iki ölkə arasında etimadın və bu kursun fəal şəkildə davam etdiriləcəyinin təzahürüdür. Bu, Rusiyadan Qarabağ münaqişəsinin səhifəsinin çevrildiyi mesajıdır. Bu gün Rusiya Cənubi Qafqazda bütün münasibətlər konsepsiyasını bunun üzərində qurur. Xankəndində Baş Konsulluğun açılması isə bu xəttin təsdiqidir. Bu, Rusiya sülhməramlılarının regiondan çıxarılmasının davamı, baş nazirin müavini Aleksey Overçukun Azərbaycan və Ermənistan arasında nəqliyyat və iqtisadi kommunikasiyaların blokdan azad edilməsinə dair müzakirələrdə iştirakıdır. Köhnə səhifə bağlanıb. İndi yeni bir inkişaf olacaq. Rusiya yeni inkişafda fəal iştirak edir. Hərbi-siyasi qərar var idi, iqtisadi qərar var idi, indi də diplomatik qərar oldu.

**Tərcümə - Elçin Bayramlı**



SON SƏHİFƏ
SƏS
7 iyun
2024-cü il

# Bu gün Bakıda 37 dərəcə isti olacaq



***Bu gün Bakıda və Abşeron yarımadasında iyunun 7-də hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, cənub-qərb küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.***

Havanın temperaturu gecə 20-24° isti, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 758 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-65 %, gündüz 45-55 % olacaq. Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən əsasən dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24° isti, gündüz 34-39° isti, dağlarda gecə 12-17° isti, gündüz 20-25° isti olacaq.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Cəlilabadda mikroavtobus aşıb, 2 nəfər ölüb

İyunun 6-da saat 10 radələrində Y.Bağırov idarə etdiyi "Mercedes" markalı mikroavtobusla Cəlilabad rayonunun Sadatlı kəndi ərazisində idarəetməni itirib və nəqliyyat vasitəsi aşıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Lənkəran regional qrupundan SİA-nın bölgə müxbirinin sorğusuna cavab olaraq bildirilib ki, nəticədə mikroavtobusda olan sərnişinlərdən S.Kazımova və K.Şükürova ölüb, bir neçə sərnişin isə müxtəlif bədən xəsarətləri alıb. Araşdırma aparılır.





# Luka Modriç daha 1 il "Real"da qalacaq

Madrid "Real"ı xorvatiyalı futbolçusu Luka Modriçlə yeni müqavilə imzalayıb. Belə ki, 38 yaşlı yarımmüdafiəçi ilə müqavilənin müddəti 1 illik uzadılıb. Beləliklə, xorvatiyalı oyunçu 2024/2025 mövsümündə də Madrid təmsilçisində oynayacaq.

Xatırladaq ki, Modriç 2012-ci ildən "Real"da çıxış edir. O, 2023/24 mövsümündə bütün yarışlarda 46 matçda iştirak edib, 2 qol vurub və 8 qolun ötürməsini verib.

# Səbail və Nizamidə telefon oğruları saxlanıldı...

**Səbail Rayon Polis İdarəsinin 9-cu polis bölməsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində iyunun 3-də bir yeniyetmənin mobil telefonunu oğurlamaqda şübhəli bilinən S.Hüseynov və F.Tağıyev müəyyənləşdirilərək saxlanılıblar. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, həmçinin Nizami Rayon Polis İdarəsinin 24-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində isə rayon ərazisində yerləşən kafedə bir nəfərin mobil telefonunu oğurlamaqda şübhəli bilinən R.Axundov saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3200**